# Azərbaycan Demokrat Firqəsi

## Və

# Milli Hökumət Dönəminin Sənədlərindən



www.achiq.info

**Səhyfə** **Dizin**


3 Hizbi-Tudeyi-İran Azərbaycan Əyalət Komitəsinin Azərbaycan Demokrat Firqəsinə Qoşulması

4 Hizbi-Tudeyi-İran Azərbaycan Əyalət Komitəsinin Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsinə Məktubu. Qətnamə. Senedlər

7 Azərbaycan Demokrat Firqəsinin Azərbaycanda Demokrat Dövlətlərinin Dilploması Məmurlarına Və İran Səlahiyətdar Məqamlarına Göndərdiyi Açıq Məktub

9 Birinci Dəfə Olaraq Azərbaycan Xanımları İntixabatda İştirak Etdilər

11 Azərbaycan Məclis Müəssisan Millisinin Bəyaniyyəsi,Azərbaycan Millətinə və Ümum İran Xalqına!

13 Azərbaycan Məclisi Milli İstəyir

14 Millət Özü İntixabat Fərmanını Sadir Edir

15 Azadlıq Qurbalıq İstətəyər

16 Azərbaycan Məclisi Millisinin Daxili Nizamnaməsi

16 Heyət Rəiysənin Vəziyfələri

17 Mütəfərriqə Maddələr

17 Dövlət Təşkili Haqqinda

19 Azərbaycan Milli Məclisinin Vilayətlər, Mahallar və Bölük Əncümənləri Seçgisi Xüsusunda 13 nömrəli Qərarı

20 Azərbaycan Milli Məclisinin Bələdiyyə Seçgisi Xüsusundaki 14 nömrəli Qərarı

22 Azərbaycan Milli Hökumətinin Qərarı

23 Məclis Müəssisan və Qanun əsası Haqqinda, M.M.nin Təsvib Etdiyi Qanun Layihəsi

24 Xaricə Vəzirləri Şurasına, London Əncümənina(toplantısına) göndərilən Teleqraf (1)

25 Azərbaycan Milli Hökumetinin Başçisi S.C. Pişəvərinin BMT Baş Assambleyasina Müraciəti

27 Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivi

35 AMH Rəhbərliyinin Sovetlərə Son Müraciəti

40 Sovet Dövlətinin Başçısı I.Stalinin Azörbaycan Demokrat Firqəsinin Lideri S C Piyşəvəriyə Şəxsi Məktubu

# Hizbi-Tudeyi-İran Azərbaycan Əyalət Komitəsinin Azərbaycan Demokrat Firqəsinə Qoşulması

Hizbi-Tudə kadrları içərisində bizim şüarlarımızı anlamaq istəməyənlər də az deyildi. Onlardan bir parası dörd il tamam çalışıb qurduqları təşkilatı qeyd-şərtsiz olaraq bizə təslim etməyə razı ola bilmirdilər. Dörd il Hizbi-Tudənin sol sözləri ilə özlərini məşğul edib, qeyri əməli xəyallar qazanında qaynayıb, bişmiş adamları bir gündə demokrat halına salmaq mümkün olmurdu. Bir sözlə demək olar ki, müəssislər konfransından sonra qabağımızda duran vəzifələr ağıla sığmayan dərəcədə ağır və çətin idi. Buna baxmayaraq qabaqdan düşünüb, danışıb, təyin etdiyimiz nəqşəni icra etməyə başlayıb, nizam və intizam üzrə irəli gedirdik.

Təbiidir ki, müvəqqəti komitə düzəldikdən sonra götürüləsi lazımı qədəm, birinci tudə təşkilatının təklifini müəyyən etməkdən ibarət idi. Bu xüsusda biz irəlidən o təşkilatın baş bilən üzvlərini hazırlamışdıq. Onlar bizim pişnəhadımızı qəbul edib, tudə təşkilatının firqəmizə ilhaq (birləşmək) ediləcəyini təmin etmək üçün çalışmağa söz vermişlər. Bu məqsədlə irəlidə hazırladığımız plan üzrə onlar şəhrivərin 15-16-da çağırdıqları geniş ümumi iclasda aşağıdaki qərarı qəbul edib, aşağıdaki məktubla bərabər, bizim müvəqqəti Mərkəzi Komitəmizə göndərməklə işin formal tərəfini əncam verməyə müvəffəq oldular. Xatırladan (mövzu) məhv olub, getməmək üçün bu tarixi vəsiqəni burada nəql edirik.

**Pişəvəri "xatirələr" s.93**

Hizb - Tudeyi Iranın Firqəmizə mülhəq olması öz - özlüyündə çox böyük bir məsələ idi. Onun içärisində bizim şwarımıza tərəfdar olmayan adamlar az olmadığından, ilhaq tərəfdarı olanlar çox ağır mwşkulat ilə rubäru ( üz - üzə ) olmuşdular- Bunlardan bəzisi bizim milli .şüarlarımızın mənasını düşünə bilmirdilər.

...

Əgər Tudə təşkilatı yuxarıdaki qərarı çıxarmasaydı, əməldə bizim üçün o qədər də təfavüt etməzdi, çünki Hizbi-Tudədən dörd tamam mitinq, nümayiş və hərarətli sözdən başqa nəticə görməyən üzvlər tez və ya gec əvvəllinci gündən ciddi iş göstərməkdə olan təşkilatımıza mülhəq olub, o təşkilatın pozulmasına səbəb olacaq idi.

O günlərdə Hizbi-Tudə üzvləri dəstə-dəstə bizə müraciət edib, firqəmizə üzv yazılmaq istədikləri halda biz başçılarla apardığımız danışıqlara görə onların xahişlərin rədd edib öz təşkilatlarında çalışmağa məsləhət görürdük. Hətta bu səbəbə görə onlar bizdən artıq dərəcədə narazı qalıb cürbəcür bəhanələrlə nahiyələrdə üzv yazılmağa başlamışdılar.

Mən Hizbi-Tudənin bizə mülhəq olmasın mənasını azaltmaq fikrində deyiləm, bu tək Azərbaycanda yox, bəlkə bütün İranda siyasi bir hadisə idi.

Hizbi-Tudənin mərkəzi komitəsi Azərbaycan təşkilatına arxalandığına görə o təşkilatın tamamilə mülhəq olması münasibətilə bizdən fövqəladə bir surətdə rəncidə olmuşdu (incimişdi). Mürtəcelər isə bizi Həzb-Tudəyə rəqib hesab etdiklərinə görə təşkilatımıza böyük ümid bağladıqları halda Tudə təşkilatının bizim ixtiyarımıza keçməsindən xoşları gəlmirdi. Onlar qorxurdu ki, bu vasitə ilə biz dəxi HizbiTudənin sol və təbəqatı şüarları üzrə hərəkət etməyə başlayaq.

Hizbi-Tudə təşkilatının ilhaqı firqəmiz üçün böyük müvəffəqiyyət idi. Biz bu vasitə (ilə edə bildik) təşkilatın yaratdığı kadr və təşkil etdiyi məhəlli komitələr və onların iş vəsilələrindən, həmçinin kəndlərdə hazırladığı siyasi düşüncədən istifadə edək.

...Təşkilat vəziyələrimizi vaxtında əncam vermək üçün bütün vəsilələrdən istifadə etdiyimizi Hizbi-Tudənin ilhaqdan sonra onun iş kadrosunu alıb, öz kadrlarımız ilə birlikdə bütün Azərbaycan kənd və şəhərləri arasında təqsim etdik. Onlar müəyyən nəqşə üzrə hərəkət edib, müəyyən günlərdə işlərinə xatəmə verməli idilər. Bu da çox müfit vaqe oldu. Onlara verdiyimiz tapşırıq çox sadə idi. Hizbi-Tudə və demokrat təşkilatlarının üzvlərini toplayıb, onların arasından iddə nisbətilə nümayəndə seçməli və bu vasitə ilə məhəl və vilayət konfranslarını təşkil edərək, orada komitələr intixab etdikdən sonra ümumi konqrəyə nümayəndələr seçib, özləri ilə bərabər, mehr ayının 9-cu günü axşam Təbrizdə hazır etməli idilər. Böyük qudrət, şiddətli intizam və ağır iş tələb edən konqrə quruluşu fəqət təşkilat yolu ilə başa gəlmirdi. Konqrənin gündəlik məsələlərini hazırlamaqla bərabər gələcəkdə firqə fəaliyyətinin əsasını təşkil edən məramnamə və nizamnaməmizin yazılıb hazırlanması da kiçik iş deyil idi.

**Pişəvəri "xatirələr", s 93**

**Hizbi-Tudeyi-İran Azərbaycan Əyalət Komitəsi Məktubunun Eyni.**

## Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsinə

Göndərilir Hizbi-Tudeyi-İranın Azərbaycan əyaləti təşkilatının şəhrivər ayının 15-də və 16-da (sentiyabrın 6 və 7-də) olan konfransin qətnaməsi barəsində olan nəzəriyyəsini tezliklə bu komitəyə məlum edəsiniz. Ehtiramati-Faiqə ilə. (dərin hörmətlə) Hizbi-Tudeyi-İranın Azərbaycan əyalət Komitəsi

**Qətnamə**

Cümə 16 şəhrivər 1324-cü il (7 sentuyabr 1945-ci) HizbiTudeyi-İranın Azərbaycan təşkilatının genişəyaləti konfransında Azərbaycan Demokrat Firqəsinin 12 şəhrivər haman il tarixli müraciətnaməsini oxuyub və onun ətrafında bəhs və mütaliə etdikdən sonra konfrans bu qərara gəldi, Azərbaycan Demokrat Firqəsi Azərbaycan xalqının ehtiyaclarını doğru və düzgün düşünüb, ona yaxınlaşmışdır. Azərbaycan xalqı qırx il əvvəldən məşrutiyyət və azadlıq, qanuni-əsası və milli hökumət quruluşu üçün İran daxilində yaşayan millətlərin hamısından artıq fədakarlıqlar edib, qurbanlar verib və xəsarətə mütəhhəmil (təhəmmül) olmuşdur. Buna qırx il tarix boyu yazılan bütün ruznamələr hətta mürtəce ruznamələrin səhifələri də belə şahiddir. Bununla belə istər Rza xan diktaturasından qabaq, istər Rza xan dövrü istər isə şəhrivər 1941-dən bu tərəfə Azərbaycan xalqı hər gün, hər saat və hər dəqiqə iqtisad, maarif, səhiyyə və zindəganlıqda olan bütün sahələrdə geri gedib və öz fəqr və fəlakətini artırmışdır. Azərbaycan kəndləri və şəhərləri gördüyümüz kimi xarabazarlığa dönmüşdür. Azərbaycan xalqı ona baxmayaraq ki, İranın Mərkəzi Hökuməti üçün bütün əyalət xalqlarından artıq ərzaq və maliyyat verir, bütün əyalət xalqlarından dalıda qalmışdır. Mərkəzi Hökumət nəzərində təhqir və tohinə məruzdur.Azərbaycan xalqınıın üçdə bir hissəsi istiysal nəticəsində Tehran və digər əyalət şəhərlərində səfil və sərgərdən bir halda yaşayırlar. Azərbaycan və onun xalqı Mərkəzi Hokumət nəzərində imperialist məmləkətlərin müstəmləkələrindən heç də fərqli deyildir. Təbiidir ki, hər hizbə o millətin səadəti, azadlığı, öz məmləkətinin ümran (abadlıq) və abadlığı onun əsas məqsədini təşkil edir. Azərbaycan xalqının digər əyalətlərdə yaşayan xalqlar kimi olan ümum ehtiyaclarından savay bir sıra xüsusi ehtiyacları da vardır ki, onu HizbiTudeyi-İran və onun mərkəzi komitəsi və götürdyü siyasi xətdi təmin edə bilmir. Bu xüsusi ehtiyacları Tehranda yaşayan Azərbaycan mühitindən uzaq olan bu mərkəz təmin etməkdən acizdir. Bu ehtiyacları birinci növbədə Azərbaycanın daxilində olub və onun mənafeini yaxından düşünüb və hifz etməyi öhdəsinə alan bir mərkəz təmin edə bilər. Azərbaycan xalqı söz, yox iş və əməl adamıdır. Azərbaycan xalqı heç bir vaxt illər boyu məclis nümayəndələrinə intixab olacaq şəxslərə alət olub, öz qiymətli vaxtını tələf edə bilməz. Bu xalqı bu yola sövq etmək xəyanətdir. Azərbaycan xalqı nə qədər tez öz sərneveştini müəyyən edib və öz müqəddəratını əlinə alarsa, daha doğrusu, Azərbaycanın daxili xudmuxtarlığını təsbit və təhkim edərsə, milləti bir o qədər xoşbəxt və məmləkəti bir o qədər abad olacaqdır.

Çağırılmış olan Hizbi-Tudeyi-İranın Azərbaycan təşkilatının əyaləti plenumu Təbriz şəhər komitəsi, Əyalət və şəhristan təftiş komisiyonu və bütün Azərbaycan vilayət və məhəlli komitələrindən intixab olunmuş nümayəndələrinin geniş konfransı qəti etdi:

Azərbaycan xalqının tərəqqi, təali (inkişafı) və səadəti və Azərbaycanın ümran və abadlığının təmini yolunda Hizbi-Tudəyi-İranın Azərbaycan təşkilatı istər rəhbərlik nöqteyi-nəzərincə hizbin mərkəzi komitəsindən qət rabitə edərək, (əlaqə kəsmək) bütün təşkilat ilə birlikdə Azərbaycan Demokrat Firqəsinə ilhaq olmağı qərara alır və birləşmənin vəsailini fərahəm etmək üçün Ağayi Sadıq Badigan – 84, Zeynalabidin Qiyami – 80, Məmməd Hüseyn Burhani – 61, Yədulla Kəlantəri – 59, Əbülhəsən Vaqif – 56 ray ilə (5) nəfərdən ibarət olan komisiyon intixab olundu. Əyaləti komitəyə qəti ixtiyarət verilir ki, intixab olunmuş komisiyonun nəzriyyatını həyata tətbiq edib və lazım elamiyə versin.

Yaşasın Azərbaycan xalqının gələcək hoşbəxt həyatı! Yaşasın onu təmin edəcək Azərbaycan Demokrat Firqəsi!

**Konfransın Heyəti Rəiysəsi 1324/6/16**

Konfransın qərarəna görə, Hizb Tudeyi İranın Azərbaycan təşkilatının Azərbaycan Demokrat Firqəsinə ilhaq olunması üçün Ayrılmış beş nəfərlik komision məzkur firqhin mərkəzi komitəsi ilə mulaqat və müzakirat aparıb, aşağıdakı işrləri nəzərdə tutmaq ilə birləşmək məsələsi icra olunsun:

1- Demokrat Firqəsinə mülhəq olan Hizbi Tudeyi İran üzvləri, Hizbi Tudiyə daxil olduqları sabiqə qeyd edilib nəzərdə tutulsun.

2- Hizbin intizam və disiplininə müraat etməmiş adamlar və ya əhali arasında əxlaq pozğunlu ilə məşhur olanlar ki, bir nəhv ailə hizbə daxil ola bilmişlər, belə adamlar Demokrat Firqəsinə qəbul edilməsinlər, belə ki, Hizbi Tudənin əyalət komiytəsi əvəllcədən təsfiyə işlərinə başlamaq fikrində idi.

Liza Hizbi Tudeyi İranın Azərbaycan əyalət komitəsi bu qərara gəlmişdir və Hizbi Tudeyi İranın Azərbaycan əyaləti təşkilat üzvlərinin hamısına ixtar olunur ki, Azərbaycanın hər yerində olan vilayət və məhəlli komiytələr, hovzər, tamam təşkilatı, arşiv, oraq və əsasiyyəni öz məhəllərində Azərbaycan Demokrat Firqəsinə mülhəq edib,ilhaq cələsəsinin surətini runevişt edib əyalət komiytəsinə göndərsinlər.

**Hizbi Tudeyi İranın Azərbaycan əyalət komitəsi**

( bax“**xatirələr**” kitabı s. 93 və **Qızıl Səhiyfələr** s. 48 / “**Xavəre no**”qəzeti Hizbi Tudeyi İranın Azərbaycan əyalət komitəsi orqani şumarə 92, 21 şəhriyvər 1324, 12 septambr 1945)

# Dövlət Məmurlarının Kəndlərdə Yaratdıqları Fəcayei İfşa Etmək Üçün Azərbaycan Demokrat Firqəsinin Azərbaycanda Demokrat Dövlətlərinin Dilploması Məmurlarına Və İran Səlahiyətdar Məqamlarına Göndərdiyi Açıq Məktub

Dövlət məmurlarının Azərbaycanda gündən- günə artmaqda olan vəhşiyana faciələrə və beçaraların şikayətlərinə səlahiyətli məqamatın təvəcceh etəməməsi, Azərbaycan Demokrat Firqəsinin mərkəzi komitəsini, azərbaycanda olan Demokrat dövlətlərinin siyasi nümayəndələrini xəlqimizin fəci' və ürək yandırıcı vəziyətindən müttəle etməyə, bu vəsilə ilə xəlqin dilsuz fəryad və naləsini mütəməddin dünyanın qulağına, hansı ki, zülm və vəhşiliyi kökündən qazmaq üçün fədakarlıq və canbazlıqlar etmişlər, yetirməyə vadar etdi.

Böyük dövlətlərin baş konsul və vis konsullarını məmləkətimizdə yandirilan od və alovdan müstəhzər etmək üçün Demokrat Firqəsi əlində olan bir çox əsnad və mədarik üzündən bir neçəsini göstərmək istir.

Azərbaycan Demokrat Firqəsi çarəsiz olaraq bu təəsüfavər iqdamı edir, ondan ötrü ki, hökumət heç öz mütəcaviz məmurlarının ehcafatından cilovgirlik etməyə hazır olmur, bərəks hər gün onun şiddətini artırır. İndi baş verən fəcaye göstərir ki, onlar bu vəsilə ilə Azərbaycan xəlqini aradan aparmaq ya onu orta əsirlərdə olan qullar kimi saxlamaq istirlər. Dodaq kəsmək, dağ qoymaq, qarın yırtmaq və bu fəcaye ilə qətl və qarət etməyin orta əsirlərdə belə az sabiqəsi vardır.

Ağalar! Siz mütəməddin dünyanın nümayəndələri və Demokrat xəlqlərinin göndərmələri bu qəzayanın şahidi olun və intizarımız budur ki, azərbaycanın məzlum millətinin səsini demokrasi dünyasının azad mətbuatında intişar verəsiz.

Əgər bir nəfər bu məzlum və sitəmdidələrin bir neçə nəfərilə söhbət edib və bunların həqqində əmələglən faciələrin yüzdə birindən müttəle olursa hətəmən mütəssir olub şəksiz öz Demokrat millətinə yetirəcəkdir ki, hələ də dünyada elə bir dövlət vardır ki, onun məmurları məmləkətin qanunlarını ayaq altına alıb və öz millətinə dünyada olan bütün insaniyyət qanunlarının xılafına olaraq rəftar edir və orada qanun, məhkəmə- müdəi- ülümumu bir ovuc müstəbidd xudsər və istifadəçi əşxasın əlində alətdır. İranın indiki vəziyəti dünya demokrasısına ardır. Qoy dünya bilsin ki, bir iddə məzlumlar ki, çarəsizlikdən onlara öz məzlumiyətlərin izhar edirlər cəvab versin.

Budur bir qismət dövlət məmurlarının kəndlərdə yaratdığı fəcaye və onların qanunsuzluqları və zulumləri həqqində ədliyə və sayir səlahiyətdar idarələrə yazılan şikayətlərdən ki, həqiqətdə xarvardan bir ovucdur və indiyə qədər də bunlara tərtib- əsər verilməyibdir.

«1- 9, 7, 24 –də «Həştərud» mahalının «Əcəmi» kəndində malik Məhəmməd Sadıqxan Müctehidi və mübaşır Əbdülhüsen Sasani bir iddə müsəlləh jandarmla kəndlilərə həmlə edir, jandarmlardan biri Zülfəli adında bir kəndlini qolundan yaralır və Həsən ağa, Qulam, Fəthəli və Məşhədi İbadullah adlı dörd kəndlini günahsız yerə güllə ilə vurur və beş nəfər kəndlini ağır surətdə yaralayırlar, belə ki, indi də yataqda dırlar. Bununla bərabər qatillər hələ də tə'qib olunmamışlardır. Lakin günahsız kəndlilərdən bir neçə nəfər tutulub və həbs edilmişlərdi.»

2- «Kağəz Künan» mahalında «Qoşa Bulaq» və «Yam Bulaq» kəndlərində 7, 7, 24- də Məhərrəm və Qənbər adlı iki nəfər kəndli Əslan Hümmayun və ustvar İbrahiminin əlilə azadixahlıq cürmi ilə qətlə yetişiblər və jandarmların müsəlləhanə həmləsi nəticəsində kəndlilər öz aılələri ilə çöllərə qaçırlar.

3- «Sarab»- ın «Şərəbiyan» kəndində bir iddə jandarm guruhban Müqəddsin başçılığına kəndlilərin evini və əmvalını qarət və özlərini döyüb həbs edirlər, bir kəndli ölür və neçə arvat, uşaq siqt edir.

4- «Tikmə Daş»- da jandarmlar azadixahların evlərini qarət edirlər və iki nəfərə qədər kəndlilər öz arvat və uşaqları ilə çöllərə qaçırlar.

5- «Əmmənd» kəndində iyirmi nəfər jandarm sərvan Dibanın başçılığı ilə kənlilərin mal və canlarına təcavüz edirlər ki, yüz əlli nəfər kəndli onların zülmündən dəli kimi qaçaraq öz canənları üçün Təbrizə Azərbaycan Demokrat Firqəsinə pənahəndə olurlar.

6- «Susltanabad» kəndində Həsən jandarm və Əli adlı birisi bir nəfər arvadı tüfəng qundağı ilə o qədər döyürlər ki, onu ölüm halına salırlar və haman arvatın iki yaşlı uşağı tüfəng qundağı zərbəsi altında ölür.

7- «Güllü Təpə» kəndində sərvan Abdini bir böyük iddə jandarmlarla azadixahları ağaca bağlayıb və onların qabağa gələnlərini həbs edib və «Mərdanqım» kəndində mürtəce’ xanlar jandarmlarla birlikdə bütün azadixahların evlərinə həmlə edirlər. Onların mallarını və əsasiyələrini qarət etdikdən sonra onların başına o qədər işkəncələr gətirirlər ki, bir iddə böyük kəndlilərdən çöl və meşələrə qaçmağa məcbur olurlar. Jandarmların və bə’zi məhəlli

www.achiq.info

mürtəce'lərin yaratdıqları fəcayedən ədliyə və sayirə qanuni mərcələrə olunan şikayət və e`lam-cürəmlərin sayı bu günə qədər yüzü keçmişdir.

Bütün o kimi mövqelərdə xəlqin məsül məqamlardan mürtəkibləri qanun- əsası hududunda və cəzayı məhkəmələrin üsuluyla tə'qib etmək, jandarm məmurlarının qeyri- qanuni olaraq hüquqı işlərə müdaxilə etməkdən cilovgırlıq olunması təqaza olunmuşdur. (Qəzayı qüvvənin icrəyı qüvvədən ayri olduğunu ədliyənin 3536- nümrə və 11, 5, 24- tarixli jandarm idarəsinə yazdığı bəxşnamə mucibincə, jandarm idarəsinin hüquqı işlərə müdaxilə etməməsi təqaza olunmuşdur. Çünki o idarənin məmurları xəlqin asayişini təmin əvəzində xəlqin qətl və qarət edilməsinin və asayişinin pozulmasının səbəbi olmüşlar.)

(Azərbaycan Demokrat Firqəsinin mərkəzi komitəsinin ictimai işlər şöbəsi) («Azərbaycan» şumarə 56, aban 25, noyabr 16)

Bu cinayətləri yaradan Tehran barmağı isə xəlqi, məxsusən kəndlini təngə gətirir və onu qanlı və şədid mübarizəyə vadar edir. Yeri gəlmişkən bunu da qeyd etmək lazimdir ki, Firqə 30- mehrdən 20- azərə qədər həmişə kənliləri sükuta də'vət edərək azadlığın sülh yolu ilə əldə edilməsini lazim görmüşdür. Tehran barmağı öz cinayətində o qədər israr və səmacət göstərmiş ki, biləxrə Firqə kəndlilərə özünüzü dilfa edin fərmanını verməyə məcbur olmuş, bu fərmanın nəticəsində fədai dəstələri meydana çıxmışdır.

## Birinci Dəfə Olaraq Azərbaycan Xanımları İntixabatda İştirak Etdilər

Zülm, əsarət, istibdab p zorun pəncısi Altinda qara çadiralarda, bütün aictimai hüquqlardan məhürum olan Ana və bacılarimiz, hər bir zıhmətə qtlaşa qatlaşa qoynunda gecə- gündüz bizləri bəsləyib boyüdən analarımiz bizim kişilərimizdədən daha artıq dərəcədə elmdən, maarifdən məhrum olmuşlar.İrtica bizim qeyrtli namuslu ana bacılarımızın üzünə elm, mədəniyyət qapılarını bağlamış, onları bütün bəşri hüquqlardan məhrum edib zavallı biçarə halına salmışlar.

Arvadların kişilər ilə bərabr hüquqa malık olması və intixabatda iştiraki taza bir məsələ deyildir.

Bəlkə bütün dünya demokrasi məmlkətlərində xanımlar öz haqlarina malik olmuşlar.Yəni dövlti işlərdə dəxalətləri var. Bu gün biz qadınların cəbhələrdə silah götürərək vuruşmalarınl gördük. Göylərdə

uçan təyyarə, maşın idarə edən qadın da vardır, lakın bizim məmlkətdə qadınlarımızi biçarə və bədbaxt etmişlər.

Bu gün azərbaycan qadınları bütünİran qadınları üçün səadət qapıların açmaqda azərbaycanın mərd, qəhraman azadıxahları kimı bu yolda əvəllinci qədəmlərini götürdülər.Bəli mümkündür bəzii irticai qısa fikir adamlara qadınlarımızın rəy verməsi təəcüb gəlsin.Lakın heç təəcüb ediləsi şey yoxdur.

Qadınların dünya azadlığında böyük əhmıyti və şirkti olmuşdur.

Yunanda qadınlar ırtıcaı qüvvələrlə vürüşmüş, daş ilə, əsləhə ilə düşməni əzmışdır.Qadınlar camiənin üzünü ışıqlandırır.Bu gün azərbaycan xalqı öz tarixinə bir şey əlavə etdi.O da ana- bacılarımızın milli məclis vəkillərinə rəy verməlәridir.

Bu da azərbaycan dəmukrat firqəsinin bizim ana və bacılarımıza olan təvəccehidir.

Qoy dünya millətləri eşidsin və görsün ki, azərbaycanın qadınları ürəkləri şad və sevinc ilə dəstə-dəstə öz rəylərilərini məclis milli vəkillərinə verdilər.Ana bacılarımız bununla kıfayətlənməyəcəklər.Onlar hətta məclisə belh gələcəkdh özlərindənvəkillər intiab edəcəklər.Qoy analarımızın talei gülsün.Bu bütün İran xanımlarına bir müjdədir.

Bununla da ana və bacılarımız tarixin səhifələrinə qızıl xətt ilə öz doğru və həqiqi hüquqlarından difa etmək üçün adlarını səbt etdilər.

Tarix həmişə.Aazərbaycanın qadınlarının qəhramanlığını və azadxahlıqlarını qeyd edib gələək nəsilləriməz onlarn bu işlərni yad edəcəklər.

Xalq şairi əaqaye Biriya rüznamәmizdə çap edilmiş şerində deyir ki:

Günş səhər doğacaq « qutb»dan səadətlə

Bu qəmli mənzərədən qurtulub şərafətlə

Həmişə ömr elərsən cahanda asudə.

O şan lı dövrə fəqət hökmran olar tudə

Sevimli şairin sözləri Azərbaycan Demokrat Firqəsinin bütün xalqımızın məsum ana və baclarımın üzünə saçdığı günəş dir ki, xalqımız bu qəmdən və fəlakətdən xilas olub və öz milli muxtariyyətini yaradıb, həmişə səadətlə yaşayacaqdır.

www.achiq.info

Yaşasın Azərbaycanın şərafətli və namuslu azadixah ana, bacı və qızları.

**M. Tahir**

**«Azərbaycan» şümarə 69, azərin 12 si, dekabr 3**

## Azərbaycan Məclis Müəssisan Millisinin Bəyaniyyəsi

## Azərbaycan Millətinə və Ümum İran Xalqına!

**Həmvətənlər**

Bu gün bizim iftixarlı millətimizin xələl tapmayan iradəsi belə qərar tutmuşdur ki, bu günkü çətin şəraitdə möhkəm bir əzm ilə özünün unudulmaz keçmişinə və qədim mədəniyyətinə və azadliq nehzətlərində götürdüyü qədəmlərə layiq olan parlaq tariyxi vəzifəsin əncam verməklə brabər hər cür manei öz qarşısından qaldırsın.

Azərbaycanın keçmiş cəlalli əzəmətinə layiq olan bu böyük məmuriyyətə xalqımız iftixar edir.

Azadlıq və demokrası uğrunda, hansı ki, onu difa etməkdən ötrü azadixah millətlərin rəşid oğlanları mərdliklə canlarını bu yolda qurban ediblər, xalqımız bu əziz məqsədlər üçün mübarizə aparmağa yenə də iftixar edir.

Bizim millətin tarixi daimi iftixarat ilə doludur.

Bizim böyük əcdadımız Mad dövrəsindən ta şah İsmayil Səfəvi əsrinə qədər və məşrutə inqilabının başlanğıcına qədər azadlığı ələ gətirməkdən üçün xarici işğalçılar əleyhinə qəhramanliq ilə mübarizə aparmışlar və bu qəhrəmanlıqlar xalqımızın tariyxi səhifələrinin ziynətidir.

Azərbaycanın ğeyrətli mücahid və rəşid oğulları, misilsiz fədakarliqlarının nəticəsində və məşrutə inqilablarında istibdab hökumətinin əsasını və irtcaın sültəsini kökündən qazaraq, İran milləti üçün azadliq və demokratlıq aldılar. Qanun əsası Azərbaycanın şərafətli oğullarının qanları bahasına alınmışdır.

40 il qabaq bizim babalarımız cəng meydanlarında mərdliklə azadlıq və demokrasını ələ gətirməkəyə nail olmuşlar və bu əziz meyvəni dəfələrlə azadlıq düşmənlərinidən hifz etmişlər.

Amma Azərbaycan milləti, hansı ki, bu qədər məşrutə inqilabının yaranması üçün himayət və difa etmək yolunda fədakarlıq etmişdir, heçvaxt öz sonsuz mücahidətlərinin nəticələrindən istifadə etməyib, azadlıqdan nəsibsiz qalıb və vaqei demokrasıdan əsər belə görməyibdir.

Ona görh ki, mərkəzin mürtəce hökumətləri Azərbaycana həmişə həqarət gözü ilə baxmış və hər vaxt bu torpağa müstəmərə gözü ilə baxıb və heçvaxt Azərbaycanı istemar etmək fikrindən  və bu torpağın zəhmətkeş milətini istemar etməklərindən başqa arzuları olmamışdır. Tehranın azadlıq öldürən hökumətinin hədəfi həmişə bu olmuşdur ki, Azərbaycanı əbədi dalı qalmış şəraitində saxlasın, cəhalət və mövhumatı bu məmləkətdə genişləndirsin. Və irtica amillərini və fəlakəti təqviyət edib, elm, mədəniyyət qapılarını bu yerin azidaxah xalqının üzünə bağlasın

Parlaq tariyxi sabiqəsi və iftixarlı mədəniyyəti olan bir məmləkətə onun milliyəti, mili adab və rüsumu dağ kimi möhkəm dir və onun mədəniyyət çırağı illər boyu qədim dünyanı ışıqlandıran xalqımızı mərkəzi mürtəcelər və mədəniyyətdən və tarixdən və müstəqil şəxsiyyətdən məhrum olan bir millət kimi qələmdad edib hər cür ictimai imtiyazlardan məhrum göstərib ona nisbət ehanətdən və yenə alçaq nisbətlərdən çəkinməyiblər.

Tarix boyu dünyanın ən abad və cəmiyətlı olan yerlərindən olan və dünyanın sərvət mənşəi sayılan vətənimizi xərabazara döndərib fəqr və fəlakətə düçar ediblər.

Tehranın azadlığa zidd olan hökuməti bu torpaqda azadlığın hərgunə asarını ortadan aparıb, onun inkişaf və tərəqqi ocağını söndürübdür. Öz ləyaqətsiz və alçaq məmurlarını hüdudsuz ixtiyarat ilə Azərbaycanı xəraba etməyə, Azərbaycan millətin təhqir edib onun ana dilini və adab rüsumunu ortadan aparmağa göndərmişdir.

Onların məqsədləri ana dilimizi ardan aparmaq, milliyət və mədəniyyətimizin əsasını mütəzəlzil etməkdir. Ta bu vasitə ilə Azərbaycanlı öz parlaq tarixini xatırlamasın.

Bu xətərli nəqşənin icrasında mərkəzin məmurları hər cür fəcaie yaratmaqdan çəkinmədilər.

Azərbaycan oğulları ya zindan guşələrində və ya tunel altında və ya İranın cənub məntəqələrinin pis havalarında tələf olub ortadan getdilər.

Rizaxanın quldur hökuməti Muxtarinin polisi vasitəsilə Azərbaycanda istədiyini etdi, və bir çox Azərbaycanlı Rizaxanın zülm çəkməsi və Muxtarinin əsarət zənciri altında məhv oldular.

İşkəncə və məhrumiyyət fişarı həddindən aşdı.

Rizaxanlar və Muxtarilər ortadan getdilər, amm Azərbaycanlı ruhi də ölmədi, azadlıq ışığı sönmədi.

1320 ci il şəhriyvər hadisəsi yetişdi.

Beynəlmiləli vəziyət İranın daxilində yaşayan millətlərə də azdalıqdan və demokratlıqdan istifadə etmək şəraitini yaratdı. 4 aildən artıqdır ki, bu vaqiədən keçir.

Bu müddət içərisində Azərbaycan xalqı dəfələrlə öz azadlığının ehyası və qanun əsasının icrası üçün mərkəzi hökumətə müraciə edib, lakin hər dəfə ya xüşunət  və çoxlu etinasızlıqla üzləşib və ya qovulublar.

Bu müddət içərisində Azərbaycanlı mərkəzi hökumətdən sərniyzə, zor, qanun əsasının tapdalanması, azdlıq və demokratlıq üsulunun məhv olması və faşisti əməliyyatdan başqa bir şey görməmişdir.

Tehran mürtəceləri Azərbaycanı xarab etməklə və bu torpağın zəhmətkeş xalqını iflasa salmaqla Tehranın zahiri gözəlliyinə gün bəgün təvəcceh edib və bizim qanuni təqazalarımızı istehza və etinasızlıqla qarşılamışlar. Azərbaycan xalqı qanun icazə vermiş həddə kimi öz qanuni təqazalarını təqib etdi. Lakin mərkəzi hökumətin mənfi cavabına rast gəldilər.

Aydın dır ki, beş milionluq bir millətin müqəddəratına bu qədər etinasızlıq və ehanət göstərmək, bu günku dünyada ki, Azərbaycandan kiçik millətlər istiqlal ya xudmuxtarlıq və ya demokraty hökumətə malik olublar, dözülməz bir işdir.

Buna görə də 150 min nəfər Azərbaycan xalqı tərəfindən intixab olunmuş nümayəndələr aban ayının 29 da Təbriz şəhərində yığışıb, Azərbaycan millətinin böyük konqrəsini təşkil verdilər.

Və bu böyük konqrənin polad təsmimləri təqibində siz Azərbaycan kişiləry və mərdana arvalarının səslərini eşidirsiniz ki, onlar tamam qüvvələrilə azadlıq və demokrasının bərpası və millətin əsasının möhkmlənməsi və muxtariyyətin ələ alınması uğrunda qiyam etmişlər

**Azərbaycan Məclisi Milli İstəyir**

Bu müqəddəs qiyamın hədəfi elə bir üsulun təqviyəti və möhkəmlənməsidir ki, onun mucibincə demokratik şəraitində Azərbaycan muxtar və azad yaşamağa haqlıdır.

Bu məqsuda çatmaq üçün Azərbaycan Məclisi Milli açmağı əvvəllinci bir iqdam hesab edib onun təxirsiz olaraq əməli olmasını tələb edir.

Azərbaycan milləti öz vəkillərini mərkəzdəki, məclisi şurayi milliyə göndərməklə bərabər lazım görür ki, öz milli muxatriyyətinin hifzi və azrzularının əməli olunması üçün özünə məxsus bir məclisi millisi olsun. Bu bir haqdır ki, Azərbaycan millətinin böyük konqrəsinin təsvibindən keçmişdir. Biz bu muqəddəs və məşru haqqımizı almaqdan ötrü var qüvvəmizlə fədakarlıq edəcəyik.

14 cü məclis, 15 ci dövrənin intixabatının təhrimi ilə qanun əsasını ayaqları altına qoyub məşrutiyyət qarşısında böyük bir xəyanətə iqdam etmişdir. Ondan ötrü ki, qanun əsasının mütəmmiminin7 ci əsli mucibincə “məşrutiyyəti əsaası cüzən və küllən tətil olunmaz.”

Qanun əsasının 5 ci əsli də aşkar deyir: “intixab olanlar iki il müdtəinə intixab olurlar və bu müdəttin əvvəli tamam vilayət və əyalətlərdən intixab olmuş vəkillərin Tehranda hazır olduğu gündən başlanaraq iki il müddətindən sonra taza vəkillər seçilir. Və camaat keçmişdəki yaxşı vəkilləri tazadan intixab etməkdə muxtardırlar.”

İntixabat qanunun 53 cü maddəsi mucibincə intixabatın qurtarmasına beş ay qalmış taza intixabatın müqəddimatı fərahəm eilməlidir.

Və üç ay intixabatın qurtarmasına qalmış taza intixabat başlanmalıdır və bu tərtib ilə məşrutiyyət bir gün belə tətil olmamalıdır. Qanun əsasının bu əsli müsəlləmi üzrə məclisin xəyanətkar əksəriyyəti tərəfindən 15 ci dövrənin intaxabatının təhrim edilməsi qanun əsasının kamilən müxalifidir. Buna görə Azərbaycan millətinin milli məclisinin, mərkəzi və məclis şurayi millinin intixabatını icra etməyə mərdanalıqla qiyam edib müəffəq olacaqdır, bu fədakarlıqdan dayanmayacaqdır.

Azərbaycanlılar bu vasitə ilə məşrutiyyət inqilabının üsuluna və demokrasının paydarlığına nisbət öz iyman və əqiydələrini göstərib təsmim tutmuşlar ki, azadlıq və demokrasi düşmənlərinə öz polad iradələri ilə diş sındırıcı cavab versinlər.

**Millət Özü İntixabat Fərmanını Sadir Edir**

Qanun əsasi mütəmmiminin 26 cı əsli mücibincə “məmləkətin qüvvəsi millətdən ibarətdit”. Bu maddəyə görə intixabat fərmanını sadir etməyə millətdən başqa bir iüksək və saleh məqam yoxdur.

Buna görə millətimiz ciddi təsmim tutur ki, öz rəşid oğullarının fədakarlıqlarının səmərəsi olan qanun əsasını hifz edib və bu qanunun əslində millətə mənzur olan hüquqları difa edəcəkdir.

Bu gün azərbaycan milləti rəşadətlə və uca səslə məclisi milli intixabatının fərmanlnl sadir edir.

**Azadlıq Qurbalıq İstətəyər**

Azadlıq qurban vermədən ələ gəlməz.

Azərbaycan milləti öz məclisi millisini qurmaq və milli muxtariyyətini, ana dilini, biləxərə bir həqiyqi demokrası rejimini qurmaq yolunda bu qurbanlıqları verməyə səmim qəlbdən hazirdir.

İndiki Tehranın nalayiq və cinayətkar hökuməti bu yolda öz sərbazlarını mücəhhəz edib bizə elan cəng verir. Vəzifəmizdir ki, vaxtı tələf etmədən öz mübariz və qəhraman sərbazlarımızı, yani Azərbaycan millətinin iftixarlı və ğeyrətli oğullarını azadlıq almaq və demokrası qurmaq yolunda mübarizə meydanına göndərək. Azərbaycan milləti inanır ki, şərafətli əfsərlər, guruhbanlar, sərbazlar, jandarmlar və pasibanlar Azərbaycan millətinin düşmənlərinin dəsiysələrinə aldanmayıb,zəhmətkeş millətin pulu ilə alınmış əsləhədən qardaş qanı tökməyə istifadə etməyəcəklər və heçvaxt öz Azərbaycanlı bacıları, anaları, qardaşları və atalarına ki, Azərbaycan millətinin səadəti və azadlığı yolunda mübarizə edirlər şəmşir çəkməyəcəklər.

Biz inanırıq ki, bu müqəddəs nehzətin təqibində sayir əyalət və vilayətlər də azdlıq bayrağını qaldırıb və sayir yerlərin azadlıqdan məhrum qalmış və sitəm görmüş xalqları da intixabatın təhrimi səddini sındırıb, Tehran məclisinin mürtəce və nasaleh əksəriyyətinin ziddinə məclisi şurayi milli intixabatını başlayıb, bununla da vilayəti əncümənlərin qurulmağına iqdam edəcəklər. Azərbaycan milləti iftixar edir ki, yenə də məşrutiyyət inqilabı kimi azdlıq və demokrası yolunda İran millətinin rəhbərliyini öhdəsinə götürür.

Buna görə Azərbaycan Heyət Millisi iftixarlı Azərbaycan milləti adından və Azərbaycan xalqının ümum təbəqatı adından Azərbaycan əfradına dəstur verir ki, azadlıq düşmənlərinin cəbhəsini sındırmaq və millətin müqəddəs arzularını əməli etmək üçün axırıncı mərhələyə qədər irəli getsinlər.

Yaşasın Azərbaycan Milləti!

Yaşasın Azərbaycan Məclisi Millisi!

Yaşasın Azərbaycan Milli Muxtariyyəti!

Yaşasın Azərbaycanın Ana Dili!

Yaşasın iranın İstiqlaliyyəti!

**“Azərbaycan” şümarə 75, azər 19, desambr 10**

# Azərbaycan Məclisi Millisinin Daxili Nizamnaməsi

1- Azərbaycan Məcclis Millisi nümyəndələrin yarısından çoxu Təbrizdə olduğu vaxt iftitah olunur.

2- Məclisi Millinin birinci cələsəsi nümatəndələrdən ən çox yaşlısının rəyasəti və iki nəfər ən cavan nüməyəndələrin katibliyi ilə açılır.

3- Məclis iftitah edildikdən sonra ələni rəy ilə müvəqqəti sürətdə bir rəis və iki katib intixab olunur.

4- Bu müvəqqəti heyət fovrən nümayəndələrin etibarnamələri və intixabat cərəyani haqqinda güzariş vermək üçün Heyət Nəzarətə danişmaq icazəsi verir.

5- Etibarnamələr nəzərdən keçirildikdən sonra məxfi rəy ilə aşağıdakı qərar üzrə 9 nəfərdən ibarət bir daimi heyət intixab olunur.

Heyəti Rəiysə: bir nəfər rəis, üç müavin, iki katib, üç üzvdən ibarət olur.

**Heyət Rəiysənin Vəziyfələri**

1- Məclisin cələsələrini idarə etmək.

2- Məclis tətil vaxtında, onun vəzifələrini öhdədar olub dövlət tərəfindən verilən qanun layihələrini azmayiş üçün qəbul edib ümumi icalısın təsvibinə yetirmək.

3- Heyəti Rəyasəti Məclis, millətin mali və idari işlərini müntəzəm surətdə idarə edib onun illik büdcəsini tənzim və onun gəlir və çıxarını müəyyən edir.

4- Heyəti Rəyasəti Məclis, daxili və idari işlərini dolandırmaqdan ötrü sadə bir idarə və hesabdarlıq təşkil edir və onun işlərini müstəqiymən öz təhti idarəsində saxlayır.

5- Heyəti Rəyasəti Məclisi Millinin idarə işlərinə nəzarət etmək üçün məclisin bazrəslik idarəsini vücuda gətirir.

6- Məclisin açıq iclaslarında qonaq sifəti ilə hazır olmaq üçün xarici diploması nümayəndələri və ruznımə müxbirləri, həmçinin məclis nümayəndələrinin zəmanəti ilə qonaqlara məxsus dəvətnamələr vasitəsilə icazə verilir. Leykən bu şəxslərin müzakiratda iştirak etməyə və izhar əqidə və ehsasat eləməyə haqları yoxdur.

7- Məclisdə rəisin icazəsi olmadan danışmaq olmaz. Növbədən xaric danışmaq üçün, məclisin xüsusi qərarına ehtiyac vardır.

8- Dəsturdan əvvəl danışmaqdan ötrü də məclis xüsusi qərar qəbul etməlidir.

9- Nümayəndələr növbət ilə danışmalı. Bu növbə münşilərdən biri vasitəsilə qeyd və rəyis vasitəsilə elan olunmalıdır.

**Mütəfərriqə Maddələr**

1- Məclisin cələsələri iki növ dur: ələni və məxfi

2- Ələni cələsələrdə diplomasi nüməyəndələr, ruznamə müxbirləri və tamaşaçılar şirkət edə bilər.

3- Məxfi cələsələrdə şirkət etmək üçün, nümayəndələr və vəzirlər və onların müavvinlərindən başqa kimsəyə icazə verilmir.

4- Məclisin danışıqlarında nümayəndələr və heyəti dövlət üzvlərindən və vəzirlərin müavinlərindən başqaları şirkət edə bilməzlər.

5- Qonaqlar və ruznamə müxbirlərindən intizami pozmaq istəsələr, rəis onları iclasdan ixrac edər. Hətta onu müvəqqətən saxlandıra bilər. Əgər onun əməli şədidi olursa saleh məhkəmə vasitəsilə mücazat olunar.

6- Məclis cələsələrinin vaxtını təyin etmək heyət rəiysənin vəzifələrindən olduğu halda, nümayəndələrin onbir nəfərinin kətbi təqazasilə də iclas çağrıla bilər.

7- Məclis binasına silah ilə daxil olmaq olmaz.

8- Məclis Milli üzvlərindən iki əsası komision təşkil olunur. Birinci Malliyə komisionu, ikinci Xalq Qoşunları İşləri komisionu.

9- Müddəiyülümumi küll və Rəiysi Təmiz təyin etmık, məclis vəziyfələrindəndir.

**Dövlət Təşkili Haqqinda**

1- Azərbaycan Milli Muxtar Dövləti, məclis vasitəsilə təyin və təsvib olunur.

2- Məclisi Milli də əksəriyyət qazanan firqənin rəhbəri (lideri) məclis rəisinin dəvəti ilə Heyət Dövləti intixab edib təsvib üçün Məclisi Milliyə təqdim edir.

3- Dövlət, yanı qüvayi mücriyyə, məclis yanı qüvayi müqənninədən tamamiylə ayrı olmalıdır.

4- Azərbaycan Milli Dövləti Vizarətxanaları ibarətdir:

www.achiq.info

**1) Baş Vəzir**

**2) Daxilə vəziri**

**3) Maliyyə vəziri**

**4) Xalq Qoşunları vəziri**

**5) Ədliyyə vəziri**

**6) Fəlahət vəziri**

**7) Səhiyyə vəziri**

**8) Yol, Post- Teleqraf və Telefon vəziri**

**9) Ticarət və İqtisad vəziri**

**10) İş və Zəhmət vəziri**

**11) Maarif vəziri**

5- Məsul vəzirləri Baş Vəzir təyin edir. Leykən onun təsvibi Məclisi Millinin vəzifələrindəndir.

6- Heyət dövlət müştərək bir surətdə Məclis Milli qabağında məsul olduğu kimi vəzirlərin tk təki də şəxsən məsuldurlar.

7- Məclis Heyət dövlətdən və tək tək vəzirlərdən sual və istiyzah edə bilər və bu halda vəzirlər cavab verməyə məcburdurlar.

8- Əgər dövlətin təqdim etdiyi layihələrdən biri rədd olunursa vəzir onu islah edib tazadan məclisə təqdim edə bilər.

9- Rəiysi Dövlət vəzirləri müərriflik etdikdən sonra dövlətin proqramını Məclisi Milliyə təqdim edər. Məclis onun islah ya rədd edilməsində muxtardır.

10- Hər il dey ayının əvvəlinə qədər dövlət ölkənin büdcəsini Məclisi Milliyə təqdim etməli və məclis isfəndin əvvəlinə dək onu təsvib etməlidir.

11- Məclisi Milli müvəzzəfdir Azərbaycan dövlət ayidatının yüzdə yetmiş beşini Azərbaycanın öz daxili məsarifinə təxsis edib yüzdə igirmi beşini dövləti mərkəzi məsarifindən ötrü Tehrana göndərməyə icazə versin.

12- Azərbaycanın dəxli və xərci Azərbaycanda təmərküz tapmalı, fəqət mərkəzi dövlətə təxsis olunan qismətlər isə Tehrana göndərilməlidir.

**"Azərbaycan" şümarə 79, azər 23, desambr 14**

## Azərbaycan Milli Məclisinin Vilayətlər, Mahallar Və Bölük Əncümənləri Seçgisi Xüsusunda 13 nömrəli Qərarı

**(Birinci fəsil təşkilat)**

1- Bütün Azərbaycan vilayat, mahallar və bölüklərində, vilayəti, mahal və bölük əncümənləri təşkl olunur.

2- Vilayət əncümənləri seçgisi iki ildən bir, mahal və bölük əncümənləri isə ildən ilə tazalanır.

3- Əncümənlərin vilayətlərdə iddəsi 25 nəfər, mahallard 25 nəfər və bölüklərdə isə 15 nəfərdən ibarət olmalıdır.

4- seçgilər gizli, müstəqim, müsavi və ümumi olmalıdır.

5- Əncümən işlərini idarə etmək üçün aşağıdaki tərtib ilə heyət rəisə seçilir: vilayət 11 nəfər, mahal 9 nəfər, bölük 5 nəfər

6- Bütün azərbaycanda 20 yaşına çatmış azərbaycanlılar (arvad və Kişi) əncümənlər intixabatında şirkət edə bilərlər.

7- Heyət rəisə gördükləri iş haqqinda əncümənlərin qarşısında məsuldorlar.

8- Yaşı 25 dən az və 70 dən çox olmayan azərbaycanlılar əncümənlərə intixab ola bilərlər.

**(İkinci fəsil)**

9- Əncümənlərin hər biri öz məhəllində Dövləti və Milli idarələrin işlərinə, xüsusən aonların xərclərinə nəzarət etməlidirlər.

10- Əncümən dövlət məmurlarından narazı olub və ya onların işlərinə etiraz olduqda mərbutə vizarətxanalara ittila verməlidirlər.

11- Əncümən seçgilərinin əməli yolu və cüziyyatı məxsus nizamnamə mücibincə təyin olunur. Daxilə vizarəti nizamnaməni tənzim edib Milli Dovlətin təsvibindən sonra Məclisin təsvibinə təqdim edir.

12- Maddədən ibarət olan bu qanun Azərbaycan Məclis Millisinin seşənbə günü 18 dey 1324 tarixli heyət rəisəsinin 9 cu cələsəsində ittifaq ara ilə təsvib olundu.

**Azərbaycan Məclis Millisinin Rəisi- Hacı Mirzə Əli Şəbüstəri**

**"Azərbaycan" şumarə 97, dey 26, janvar 10**

## Azərbaycan Milli Məclisinin Bələdiyyə Seçgisi Xüsusundaki 14 nömrəli Qərarı

**(birinci fəsil təşkilat)**

1- Tamam azərbaycanın şəhər və qəsəbələrində tam bir demokratik üsulu ilə məxfi, müstəqim, ümumi və müsavi bələdiyyə seçgisi icra olur.

2- Bələdiyyə əncümənləri 4 dərəcəyə təqsim olunur:

a- Təbriz, hökumət mərkəzi,

b- əvəllinci dərcə şəhərlər, fərmandarlıq mərkəzi

c- ikinci dərcə, mahal mərkəzi,

d- bölük mərkəzi.

3- Bələdiyyə əncüməninin üzvlərinin sayı aşağıda yazılan qərar üzrə olmalıdır:

a- Mərkəzi hökumətdə 65 nəfər, Fərmandarlıq mərkəzində 47 nəfər, Mahal mərkəzində 31 nəfər, Bölük mərkəzi 25 nəfər.

4- Bələdiyyə əncüməni öz işlərini idarə etmək üçün ümumi iclasda məxfi rəy ilə heyət rəisə intixab etməlidir.

5- İcraiyyə heyətinin sayı mərkəzdə 17 nəfər, fərmandarlıq mərkəzində 11 nəfər. Mahal mərkəzində 9 nəfər, bölük mərkəzlərində 7 nəfərdən ibarət olmalıdır.

6- Heyəti amilə, icraiyyə heyətinin qarşısında məsul olduğu kimi, icraiyyə heyəti də bələdiyyə əncüməninin qarşısında məsul olmalıdır.

7- Bələdiyyə əncüməninin dövrəsi bir il olacaqdır.

8- Bələdiyyə rəisi, müavin və iki münşiləri, ümum bələdiyyə əncüməninin üzvləri tərəfindən seçilir.

**Təbsirə**- İgirmi yaşına çatmış arvad və kişi intixab olub və aintixab edə bilər.

**(İkinci fəsil)**

9- Bələdiyyəyə mərbut olan işlərin müqərrəratı (şəhərin əvariz, tikinti işləri, su mövzui, ışıq işləri, nəzafəti və ğeyrə) icraiyyə heyəti tərəfindən tənzim edilib və bələdiyyə əncüməninin ümumi iclasında təsvib olunmalıdır.

10- Bələdiyyə büdcəsinin tənzimi və təsvibi və bələdiyyə məxaricinin nnəzarəti əncümənin vəzifələrindəndir.

11- Bələdiyyəyə mütəəliq olan əmlakın satışı və bələdiyyənin ehtiyaclarını təmin etmək üçün əmlak müamiləsi, bələdiyyə əncüməninin vəzifələrindəndir.

**(üçüncü fəsil, mütəfərriqə maddələr)**

12- Bələdiyyə əncümənlərinin seçgi şərtlərinin təyini üçün bu qanuna mərbut olan başqa cüziyyatı müəyyən etmək, ayrı nizamnamə mücibincə tənzim olub, dövlət təsvibindən sonra Məclis Milliyə, təsvib üçün göndərilir. 12 maddədən ibarət bələdiyyə seçgisi qanunu Azərbaycan Məclis Millisinin seşənbə günü 18 dey 1324 tarixli heyət rəisəsinin 9 cu cələsəsində təsvib olundu.

**Azərbaycan Məclis Millisinin Rəisi- Hacı Mirzə Əli Şəbüstəri**

**Azərbaycan Məclis Millisinin katibi, m. Vilai**

**“Azərbaycan” şümarə 97, dey 20, yanvar 10**

# Azərbaycan Milli Hökumətinin Qərarı

Tehran Hökumətinin xainanə siyasəti nəticəsində Azərbaycanın bütün şəhər və kənədlərində vücuda gələn mali və ticarəti böhran gündən günə şiddətlənməkdə və nəticədə ümum Azərbaycan xalqının iqtisadi həyati şədiydən müxatirəyə düşməkdədir

Bu əsfənak halı müşahidə edən Azərbaycanın tüccar, kəsbə və malikləri mükərrər surətdə kətbən və şifahən Milli Hökumətə müraciət edib təcili əlac istədikləri və Milli Hökumətin əlində olan geniş məlumat icab edir ki, böhranın qabağını almaq üçün ciddi tədbirlər görüb Azərbaycanın ticarət malları üçün bazar axtarsın. Bu mövzü Milli dövlətin bərnaməsində və xalqın numayndələri tərəfindən təsdiq və qəbul edilən başqa sənədlərdə daxi qeyd edilmişdir.

Azərbaycan xalqını bundan artıq Tehran Hökumətinin oyunlarına qurban etmək olmaz. Tez ya gec gərək iqtisadi böhran xatimə tapsın. Bünün üçün Milli Hökumət müstəqiymən xarıci ölkələrlə ticarət munasibati vücuda gətirməli və bu munasibati ticarəti peymanlar vasitəsilə düzgün yoluna qoymaq qəsdilə Milli Hökumət özünün 24 Dei tarixli cəlsəsində tüccar və ərbabların müraciətnaməsini dəqiq mütaliə edib və bu xüsusda aşağıdaki qərarı qəbül etdilər:

1 – Ticarət iqtisadi vəzirinin riyasəti altında iqtisad və maliyyə vizarətxanalarının ali rütbə və xibrə məmurlarından bir kümision intixab olunsun. Bu işə lazım olan itilaat və mədarıki toplayıb çox tez bir zamanda işə başlasın və səlahiyyətdar xarıci məqamat ilə danışığa girişsin.

2 – Bu peymani Azərbaycan üçün daha mənfəətli bir surətdə həll etmək məqsədilə ticarət və maliyə vizartləri Azərbaycanın varidat və sadiratını dəqiqən müəyyən edib onların kamil amar və ehsaiyyəsinə bir həftəyə qədər heyət dövlətə təqdim etsinlər.

2 – Azərbaycan sadirat mallarının həqiqi ərzişin müəyyən etmək üçün ticarət vizarti maharibədən əvəllki qiymətləri bir daha nəzərdən keçirib, məşruh və müfəssəl bir surətdə itilaat toplasın və yuxarıda qeyd edilən komisionun ixtiyarına qoysun.

3 – xarici ölkələrlə müstəqim ticarət peymanını əməli və qanuni surətdə tənzim və icra etmək üçün qanun layihəsi hazırlanıb Məclisi Milli nəzərinə yetirilsin.

**Azərbaycan Milli Hökumətinin Baş Vəziri - Mir Cəfər Pişəvəri**

**«Azərbaycan», şümarə 101, dey 25 , yanvar 15**

# Məclis Müəssisan və Qanun Əsası Haqqinda Məclis Millinin Təsvib Etdiyi Qanun Layihəsi

1- Azərbaycanın Məclis Millisi ölkənin demokratlıq üsul üzrə idarə edilməsi lüzumunu nəzərə alıb qanun əsası (konstitusion) layihəsi tənzim etmək üçün Milli Hükomətimizin baş Vəziri Aqayi Mir Cəfər Piyşəvərinin sədarəti və aşağıda adları qeyd olunan əşxasın üzvlüyü ilə 15 nəfərdən ibarət bir heyət intixab edir:

Aqyan: Diybaiyan, Məhəmməd Əziyma, Sadıq Padəqan, Firiydun İbrahiymi, Zeynəlabdin Qiyami, Xanım Şəms Ciddi, Əbdullah Rəhiymi, İsmail Şəms, Doktor Cavid Məhtaş, Atəş Bəyat Maku, Simon Mıqırdiçiyan, Xanım Əfiyfə Turki, Əbdüləli Pəjuhiydə, Şeyx Musa Kəyani.

Bu heyətə tapşirir ki, bir ayın müddətində azərbaycanın əsası qanununun (konstitusion) layihəsini tənzim edib Məclis Milliyə təqdim etsin.

2- Xalqın nəzərini bilmək və vətənpərəst əşxasın fikrindən istifadə etmək üçün layihə Məclis Müəssisan təşkilindən qabaq qəzetlərdə yazılıb, ümumun nəzərinə yetişsin və əşxasın göstərişlərini toplayıb istifadə etmək üçün qanun əsasi tənziminə məmur olan heyət tərəfindən müəyyən bir komision təşkil olunsun.

3- Əsası qanunlar təhiyyə və tənzim edilirkən Azərbaycan milli, mədəni, siyasi, aiqtisadi və ictimai vəziyyəti nəzərdh dutmaq ilə bərabər onun hər cəhətdən tərəqqi etməsini təmin etmək üçün xarici ölkələr ilə azadanə əlaqə və xüsusən ticarət rabitəsi yaratmaq vəsiylələri layihədə daha aydın və daha açıq bir surətdə göstərilməlidir.

**Azərbaycan Məclis Millisinin Rəisi- Hacı Mirzə Əli Şəbüstəri**

**“Azərbaycan” şumarə 102, dey 26, janvar 16**

www.achiq.info

# Xaricə Vəzirləri Şurasına, London Əncüməninə(toplantısına) Göndərilən Teleqraf (1)

**Amerika** Müttəhid Cümhuriyyətləri, Xaricə Vəziri cənab Brenes,

**Ingilistan** Xaricə Vəziri Cənab Boven,

**Şuralar** Cümhuriyyətləri İttifaqı Xaricə Vəziri cənab Molotov,

**Fransa** Xaricə Vəziri cənab Bidö,

**Çin** Xaricə Vəziri cənab Van-şiy-Betisz.

Böyük demokratik dövlətlər qanlı faşist üsul-idarəsini məhv etdikdən sonra dünyanın çox məmləkətləri adilanə demokratik üsul-idarəsi yaratmışdır. Qabaqlarda zülm altında əzilən cahanın çoxlu qovm və millətləri tarixi Atlantik Mənşuruna (Xartiyasına) müvafiq olaraq öz müqəddəratlarını təyin etməyə başlamışdır.

Hər xalq öz milli mədəniyyətini, iqtisadiyyatını və güzəranını qaldırmaq üçün demokrası rejimin nemətlərindən istifadə etmək istəyir. Mütəəssüfanə İranda gün-bəgün diktatorluq təhlükəsi artmaqda və faşist ünsürləri Riza şahın mənhus hakimiyyətindən sonra əldə edilən natamam azadlığı belə boğmaq üçün hər cür fitnələrə əl atmaqdadır. Həm əyalətlərdə və həm də paytaxtda azadxahlar təqib olunur. Demokratik hərəkatı təmsil edən ruznamələr (qəzetlər) və cəmiyyətlər silah gücü ilə dağıdılır. İrtica qüvvələri təzədən sabiq Riza şahın istibdad rejimini istəmək üçün İranın namuslu azadxahlarının qanını tökməkdən çəkinmirlər.

İranda beş milyon nüfusa malik olan biz azərbaycanlıların vəziyyəti daha təhəmmül edilməzdir. Azərbaycan milləti uzun illərdən bəri İrandakı azadlıq nehzətinin ələmdarı olmağına baxmayaraq öz torpaqlarında fəqr və biçarəlik halında, hər cür hüquqdan məhrum halda yaşamaqdadır. İranda bu vaxta qədər ağalıq edən irtica hakimiyyəti nəticəsində Azərbaycan milləti öz milli mədəniyyəti tərəqqisinə çalışmaq, xaraba şəhərlərini abadlaşdırmaq və xalqın fəlahət (kənd təsərrüfatı) behdaşt (səhiyyə) və sair ehtiyaclarını rəf etmək və hətta öz uşaqlarını ana dilində belə oxutmaq üçün heç haqq və ixtiyara malik deyildir. Dünyanın qədim xalqı olan və min illər ərzində böyük mədəniyyət və sənət əsərləri yaratmış Azərbaycan xalqı indi istibdad və diktatorluğun aradan götürülməyə başlandığı bir zamanda öz hüquqlarını tələb edib və bu müqəddəs yolda mübarizəyə qalxmışlar.

Biz azərbaycanlılar Atlantik Mənşurunda göstərilən hər bir millətin öz müqəddəratını özü təyin etmək əqidəsinə dərin bir iman bəslədiyimizi və bu acı vəziyyətimizi böyük mütəffiq dövlətlərin təşkil verdiyi vəzirlər şurasına yetiririk.

Biz bütün İranda həqiqi demokrasi üsulun bərpasının və Azərbaycan xalqına daxili azadlıq və muxtariyyət verilməsini, ümum məmləkətin adilanə qanunlarını gözləməklə bərabər, Azərbaycanın öz sərneviştini özü təyin etməsini istəyirik.

Biz böyük mütəffiq demokrasi dövlətlərin xalqımızın bu tarixi və adilanə tələbində bizə kömək etmələrini, beş milyondan artıq Azərbaycan xalqı adından tələb edirik.

Azərbaycan xalqı əmindir ki, bütün millətlərə və qövmlərə milli azadlıq və xilaskarlıq vəd etmiş böyük müttəfiq demokrasi dövlətlər bizim də tələbimizi və təbii haqqımızı nəzərdə tutacaq və öz köməklərini bizdən əsirgəməyəcəklər.

Bu qətnamə Təbriz şəhərində Şir Xorşid teatribinasında 1500 nəfərdən mütəcaviz Azərbaycanın müxtəlif təbəqələrindən təşkil olunmuş konfransda qəbul olunmuşdur.

**«Azərbaycan», Ruznaməsi, omrh 10, 1 mehr 1324**

1- Böyük dövlətlərin xaricə vəzirlərinin Londondakі toplantısına göndərilən teleqraf

## Azərbaycan Milli Hökumetinin Başçisi S.C. Pişəvərinin BMT Baş Assambleyasina Müraciəti

Dunyanın ən qedim xalqlarından olan Azərbaycan xalqı özünün zengin milli tarixine malikdir. Esrlərin keşməkeşlərində o, öz milli dilini, adət və ənənələrini qoruyub saxlayabilmişdir.

Iran zülmkarları Azərbaycanı öz hakimiyyətləri altına alaraq, onun sərvətini amansıizcasına taladılar. Neticəde Azərbaycanın çiçeklənən kənd və şəhərləri dağilmaq həddinə gəlib çatdi.

Şovonist böyuk dövletçilik siyaseti yürüden İran höökmdarları Azərbaycanlıların varlığını tamamile inkar etməyə cəhd göstərir, onların dilini əlinden almaqdan, hər cür təhqiredici əməllərdən çəkinmirler.

Buna baxmayaraq Azərbaycan xalqi bir gun de olsun,◌̧ z azadliqi uqrunda mubarizesini dayandirmadi.Azərbaycanlilarin öz milli azadliqlari uqrunda mubarizesinin en parlaq numunesi Settarxan, Baqirxan, Şeyx Mehemmed Xiyabani və başqalarinin hereketleridir. Bu cesur insanlar mubarizenin başçilari, hemde şehidleri idi.

Qanlı faşizmin üzərinde demokratik dövlətlərin qələbəsi Azərbaycan xalqının mübarizəsinə yeni təkan verdi, yeni şerait yaratdı.

Tehran hökumətinin müqavimətinə baxmayaraq bu ilin 21 Azərində (12 Dekabr) Azərbaycan xalqının əsrlərdən bəri apardığı mübarizəsi qələbə ile başa çatdi. Atlantik Xartiyasına uyqun olaraq Milli Məclisin, Azərbaycan Milli Hö◌̧kumətinin qurulması ile nəticələndi.

Azərbaycanda demokratik əsaslara dayanaraq bir Milli H◌̧ökumət qurulub və◌̧ öz fəaliyyeti barədə bütün dünyaya məlumat yayib.

5 milyonluq Azərbaycan xalqı milli dilinin, tarixinin, mədəniyyətinin kömeyi ile özünün müasir bir xalq olduğunu derk etdi və bir də heç vaxt Fars zülmünün altında inləməyə, Fars dilinin İrandakı başqa xalqların dilləri üzərində ağalığına icazə verməyəcekdir.

Bu xalq bir nəfər kimi öz həyatını milli azadlığına və dövlətine qurban vermeye hazirdir.

Yeni, demokratik Azərbaycan hökuməti qisa vaxt ərzinde ictimai, iqtisadi, mədəni sahələrdə ciddi dəyişmələr edə bilib, daxili tehlükesizlik tam bərqərar olunub.

Yeni Milli Hökumətin fəaliyyəti sayəsində əsrlərlə istismar olunan xalq adi insan şəraitində yaşamağa başlayıb. Bununlada o, öz milli dövlətini qorumağa, onu idarə etməyə qadir olduğunu göstərir.

Azərbaycan xalqının iradəsi ilə Atlantik Xartiyasına, yəni böyuk demokratik dövlətlərin vədlərinə uyğun olaraq qurulan Azərbaycan Milli Hökuməti artıq danılmaz faktdır.

BMT Baş Assambleyasına müraciəti ile Azərbaycan xalqı xahiş edir ki, Azərbaycan Milli Hökumətinin varliği faktı tanınsın və kənardan müdaxilə olmadan, ona öz taleyinin özu tərəfindən müəyyənləşdirilməsine təminat verilsin.

**Azərbaycan Milli hökumətinin baş vəziri Seyid Cəfər Pişəvəri. 28 Yanvar 1946.**

# Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivi*

**Aprel ayının 3-də** M.C.Bağırov general Qlinski, İbrahimov, Atakişiyev, Həsənov və Zeynalova təcili məlumat göndərdi. O yazırdı: "Pişəvərini və onun vasitəsi ilə digər rəhbərləri məlumatlandırın ki, Tehran hökuməti özü onlara qarşılıqlı güzəştli şərtlərlə danışıqlar barədə müraciət edəcəkdir. Onlar danışıqların aparılacağı yer üçün Kərəci təklif edirlər. Bu özü bir daha təsdiq edir ki, Tehran hökuməti azərbaycanlılarla əsaslı şəkildə hesablaşır. Milli hökumət özünü qürurla aparmalı və başladığı tədbirlərin heç birindən geri çəkilməməlidir. Eyni zamanda, Milli hökumətin silahlı qüvvələri indi olduqları mövqelərdə möhkəm dayanmalı və Qızıl Ordu çıxandan sonra Tehran hökumətinin nümayəndələri - fərqi yoxdur polis olsun, jandarm, yaxud ordu hissəsi - Milli hökumətin xüsusi icazəsi olmadan, danışıqlar başa çatana və saziş imzalanana qədər Azərbaycana buraxılmamalıdır" .

Tehran hökuməti ilə danışıqlar aparılması barədə Sovetlərin M.C.Bağırovun dilindən deyilən təkliflərini M.İbrahimov və dövlət təhlükəsizliyi nazirinin müavini, general Ə.Kərimov Bakıdan gətirmişdilər. M.C.Bağırovun əlavə göstərişləri isə aprelin 3-də hərbi teleqraf vasitəsi ilə verilmişdi. Aprelin 3-dən 4-nə keçən gecə M.İbrahimov, H.Həsənov, A.Atakişiyev, Ə.Kərimov S.C.Pişəvəri ilə görüşüb Tehran hökumətiylə əsasən razılaşdırılmış Sovet təklifləriylə onu tanış etdilər. M.İbrahimov yaranmış şəraitlə bağlı Azərbaycan Milli hökumətinin özünü necə aparması haqda M.C.Bağırovun söhbətinin stenoqramını və onun göstərişlərini oxudu. Stenoqramı və təklifləri dinlədikdən sonra S.C.Pişəvəri geniş bir açıqlama verdi. O dedi: "Bu sənədi dinlədikdə, 1920-ci ilin Gilan hadisələri mənim gözümün qabağına gəldi. Onda da inqilabçı dostlarımız bizi aldatdılar və həmin dövrdəki irtica tədricən hamını repressiya etdi, məhv etdi, canlarını qurtaranlar digər ölkələrə getdilər. İndi də belə alınır. Qəvam başda olmaqla hazırkı hökumət sizi aldadır. O, Tehranda sizin səfirliyi öz adamları ilə əhatə etmişdir və ona görə formal olaraq bir sıra güzəştlərə gedir ki, Qızıl Ordu çıxdıqdan sonra sizin təsirinizi və sizin siyasətinizi İran xalqının, ilk növbədə isə Azərbaycan xalqının fikrindən silsin. Hər şeydən əvvəl siz gedən kimi o, həmin dəqiqə vaxtilə Sovet İttifaqından Gəlmiş adamlarla (mühacirlərlə) haqq-hesab çəkəcəkdir. Onlar isə on minlərlədir. Sonra isə bütün demokratik elementləri və onların rəhbərlərini məhv edəcəkdir. Bu işdə irtica fəal iştirak edəcəkdir, hansı ki, maliklərin və xanların bir hissəsinin əmlakı müsadirə olunmuş, onlar fədai dəstələri tərəfindən təqib edilmiş və bəziləri öldürülmüşdür. Bunların qohumları dsmokratlar və onların ailələri üzərində elə möcüzəli cəzalar törədəcəklər ki, tarix bu qırğını unutmayacaq. Biz özümüz gördük ki, 1941-1942-ci ildə hələ Qızıl Ordu burada olarkən bu irticaçılar demokratların uşaqlarını necə öldürürlər, qızlarını zorlayırlar, günün günorta çağı bu adamların burnunu, qulağını, dodaqlarını necə kəsirlər. İndi təsəvvür edin ki, Qızıl Ordu gedir, onun ardınca siz gedirsiniz və bizi bu vəziyyətdə qoyursunuz. Əgər biz Qəvam hökumətinə güzəştə gediriksə,

deməli, öz məqsədlərimizdən, öz əqidəmizdən və nəhayət, İranda gördüyümüz böyük işlərdən imtina edirik. Bu mənim üçün çox ağırdır. Mən istəsəm də bunu edə bilmərəm. Mən xalqın mənafeyi üçün döyüş meydanında ölməyə hazıram, lakin xalqı sata bilmərəm, bu mənim tərəfimdən vicdansızlıq olar. Sizin köməyinizlə biz demokratlar və rəhbərlər ilk gündən öz çıxışlarımızla İran Konstitusiyasını pozmağa getdik və onu pozduğumuzu bütün dünyaya bəyan etdik. İndi bütün bunlardan sonra Qəvam hökuməti bizi bağışlayırmı? Hətta o, hökumət başından getsə, digəri gəlsə də bizi bağışlamaz. Oxunan stenoqramdan aydın olur ki, guya, Azərbaycan xalqı öz demokratik hərəkatı ilə çox şeyə nail olub. O, məktəblərdə uşaqların ana dilində oxumasını və ümumilikdə öz istədiklərinin 50 faizini həyata keçirib. Mən öz qəlbimi sizə açmalıyam: bir vaxtdan sonra Azərbaycan xalqının tarixdə yalnız quru adı qalacaq, o özünü Şərqdə elə nüfuzdan salır ki, gələcək azərbaycanlılar bir də demokratik hərəkatın yayılması barədə belə fikirləşməyəcəklər. Mən hələ bizim işlərin ortasında - demokratik hərəkat genişlənəndə və Milli hökumət yarananda bir sıra məqamlarda sizin hərəkətlərinizdən şübhələnirdim ki, görəsən, siz həyata keçirməyə başladığımız işlərdə bizə axıra qədər kömək edəcəksinizmi? İndi artıq tamamilə sizə inanmıram. Təkrar edirəm, mən artıq sizə inanmıram. Fikir verin, mən sizin razılığınızla İran Azərbaycanında torpaq islahatı keçirməyə başlamışam. Çoxlarına torpaq verilib, hətta dünən Marağada olanda yoldaşlara yeni göstəriş verdim ki, torpaq paylanmasını tezliklə başa çatdırsınlar. Bu gün kəndli dəstəsi torpaq məsələsi ilə bağlı Təbrizə gəlib. Bütün bunlardan sonra mən hansı vicdanla və necə onlara deyim ki, aldığınız torpaqları geri qaytarın. Bu, oyuncaq deməkdir, bu, Demokrat Partiyasını və Milli hökuməti kəndlilərin, tacirlərin, hətta irticaçıların özlərinin belə gözündə tamamilə hörmətdən salmaq deməkdir. Onlarda belə bir fikir yaranır ki, bunlar hökumət deyillər, bunlar rəhbər deyillər, hansısa bir avantüristlər dəstəsidirlər ki, bu gün qərar qəbul edir, sabah isə onu ləğv edirlər"

Sonra S.C.Pişəvəri Sovet iştirakçılarına müraciət edərək dedi: "Məni düzgün başa düşün, mən öz canımı xilas etmək istəmirəm, mən Azərbaycan xalqının mənafeyini müdafiə edirəm. Sovet hökuməti və siz İran şah hökumətinin rəhbərlərini yaxşı tanımırsınız. Onlar bu gün Sovet hökumətinə çox cüzi güzəştlər edirlər, sizi əmin edirəm ki, sabah bundan imtina edib bütün Azərbaycan xalqını, hər şeydən əvvəl demokratik hərəkatda fəal iştirak edənləri təqib etməyə başlayacaqlar. Bu adamlar öz ailələri, uşaqları, arvadları ilə birlikdə Sovet Azərbaycanı sərhədlərinə qaçacaqlar ki, özlərini xilas etsinlər. Mən bilirəm ki, sizin sərhədçilər minlərlə adamın qabağını alacaq, həbs edəcək, ya da təklif edəcəklər ki, geri qayıtsınlar. Gərək Sovet hakimiyyəti bütün dünyanın gözü qarşısında buna yol verməsin. Belə ki, zərər çəkənlər yenə keçmiş azərbaycanlılar olacaq. Onlar iki od arasında qalacaqlar. Bəşər tarixində görünməmiş hadisələr baş verəcək. Mən sizdən, burada oturanların hər birindən dünya siyasətini, Sovet hökumətinin siyasətinin xüsusiyyətlərini daha dərindən başa düşürəm. Bilirəm ki, məhz indiki vaxtda o, Milli hökumətə - İran hökuməti ilə ağır mübarizədə azərbaycanlılara açıq kömək edə bilməz. Şəxsən mən buna heç iddia da etmirəm və bunu anlayıram. Lakin Qızıl Ordu çıxandan sonra onsuz da şah hökuməti günlərlə, aylarla deyil, illərlə və bütün

məkrli yollarla bizi təqib edəcəkdir. Onsuz da biz ölməliyik, lakin icazə verin, şərəflə ölək. Qoy bütün dünyaya məlum olsun ki, Azərbaycan xalqı, o cümlədən onun Demokrat Partiyası və Milli hökuməti qorxaqlıqdan deyil, İran şah hökumətinə qarşı öz azadlığı uğrunda ağır mübarizənin döyüş meydanında həlak oldu. Buna görə bizə lazımdır ki, Qızıl Ordu çıxandan sonra siz kənara çəkiləsiniz, İranın daxili işinə müdaxilə etməyəsiniz ki, biz hələ azad etmədiyimiz şəhər və kəndlərin əhalisini ayağa qaldırmaqla, fədailərin və bizim silahlı qüvvələrin köməyi ilə mürtəce şah hökuməti hücumlarına qarşı Azərbaycan ərazilərinin keşiyində dayanaq. Sonuncu adama qədər mübarizəni davam etdirəcəyik, qəhrəman azərbaycanlılar buna hazırdır. Yaxud icazə verin, biz bütün qüvvələrimizi səfərbər edək, İranın bütün demokratik qüvvələri ilə əlaqəyə girək, Tehrana gedib şah hökumətini devirək və bütün İranda demokratik hökumət quraq. Onda biz azərbaycanlıların yeni həyat quruculuğu üçün böyük perspektivlər açılır. Digər tərəfdən əgər biz mənim sizin hamınızdan yaxşı tanıdığım ikiüzlü Qəvam əs-Səltənənin təklifləri ilə razılaşsaq, əlverişli məqam düşən kimi o, Azərbaycanda bütün demokratik hərəkatı məhv edəcəkdir. Nəticədə yalnız Azərbaycan xalqı deyil, Sovet İttifaqı da uduzacaqdır. O öz təsirini nəinki İranda, hətta bütün Yaxın Şərq ölkələrində itirəcəkdir. Stenoqramda səslənən güzəştləri Qəvama vermək məgər Sovet İttifaqı üçün münasibdir? Mənim fikrimcə, bu güzəştlərlə SSRİ özünə böyük zərbə vurur. Mən bir daha bildirirəm, bu sərfəli deyil, bu sizin üçün də, bizim üçün də ziyanlıdır. Mən özümün əqidəmdən dönə bilmərəm və gedib Məclis qarşısında asanlıqla şah hökumətinə güzəştə getmək barədə təbliğat apara bilmərəm. Mən həmişə bunun əleyhinə çıxış etmişəm, təbliğat aparmışam, Milli hökumətin üzvlərini mübarizəyə çağırmışam. Əgər mən bunu etsəm, həmin dəqiqə onların arasında narahatlıq və parçalanma başlayacaq və onlar evlərinə dağılışacaqlar. Bəziləri hələ, ola bilsin ki, düşmən cəbhəsinə keçib oradan öz vətəninə, Demokrat Partiyasına və Milli hökumətinə sədaqətli olan adamların nüfuzdan salınmasına, tam darmadağın edilməsinə başlayacaqdır".

Bütün bu sözləri dedikdən sonra Pişəvəri bir az sakitləşdi. General A.Atakişiyev daim onu yumşaltmağa çalışırdı. Pişəvəri sakitləşdikdən sonra söhbəti digər səmtə yönəltməyə çalışan A.Atakişiyev soruşdu: "Əgər Qəvam əs-Səltənə özü sənə danışıqlar üçün müraciət etsə, bəyəm sən bundan imtina edəcəksən, imtina etməyin bir mənası varmı?" Pişəvəri bildirdi ki, danışıqlardan imtina etməyəcək, lakin qəbul edilmiş qanunlara uyğun olaraq, gərək Məclisdən vəkalət alsın. O dedi: "Mən gərək bu məsələni Məclisin qarşısında qaldıram, onların vəkalət verməsini xahiş edəm, gərək komissiya seçilsin və danışıqlara göndərilsin. Danışıqlar üçün yer ya Təbriz, ya da Miyanə seçilsin. Bunu ona görə etmək lazımdır ki, Azərbaycan xalqı bilsin: Qəvam danışıqları Azərbaycan ərazisində, Azərbaycan şəhərində aparır, ikincisi, bu şərait Qəvam əs-Səltənəyə təsir göstərə bilər ki, bir sıra güzəştlərə getsin. Danışıqlarda mən, Məclisin sədri Şəbüstəri, daxili işlər naziri doktor Cavid, Demokrat Partiyasının rəhbəri Padeqan, kənardan məsləhətçi kimi hökmən sizin nümayəndəniz iştirak etməlidir. Əgər bizim danışıqlar müsbət nəticə verməsə və Tehran hökuməti Azərbaycan ərazisini silah gücünə geri qaytarmağa cəhd etsə, bu şəraitdə sizin tərəfinizdən göstəriş gəlsə ki,

ziddiyyətləri dinc yolla, İran hökumətinə güzəştə getmək yolu ilə həll etmək lazımdır, mənə və Demokrat Partiyasının digər rəhbərlərinə sizin belə göstərişlərinizi həyata keçirmək çətin olacaq. Ola bilsin ki, bu halda biz Milli hökumətin və Demokrat Partiyasının içindən yeni nümayəndələr seçək və Qəvam əs-Səltənə ilə danışıqlar aparılması vəzifəsini onların üzərinə qoyaq. Bu halda bizə, artıq tanınmış rəhbərlərə gərək icazə verilsin ki, Sovet İttifaqına olmasa da, digər bir yerə, heç olmasa Bolqarıstana gedək. Eyni zamanda, demokratik hərəkatda fəal iştirak etmiş iki minə yaxın ailəyə Sovet İttifaqına getməyə, haradasa işə düzəlməyə, yaxud Azərbaycanda hadisələrin gələcək inkişafına uyğun işləri genişləndirmək üçün gözləməyə icazə verilməlidir". Sonra Pişəvəri kədərli təbəssümlə üzünü oturanlara tutub dedi: "Mən bilirəm və dərindən inanıram ki, siz burada oturanlar və şəxsən yoldaş Bağırov daxilən Azərbaycan Milli hökumətinin güclə, qüvvə ilə müdafiə edilməsinin tərəfdarlarısınız, heç bir halda razı ola bilməzsiniz ki, onun nüfuzu və müstəqilliyi məhv olsun. Ona görə ki, biz bu hökuməti sizinlə birgə yaratmışıq. Lakin dünyada indiki vəziyyət, bununla bağlı Sovet İttifaqının siyasəti sizə hökm edir ki, Qəvam əs-Səltənənin yeni qurulmuş hökumətinə güzəştə gedəsiniz. Axı sabah siz gedirsiniz, mən burada qalıram, axı mən xalqa vəd vermişəm, mən onu ayağa qaldırmışam, xalq məni tanıyır, necə mən Qəvam əs-Səltənənin və onun irticasının qarşısında susa bilərəm, on minlərlə azərbaycanlını qurban verə bilərəm. Mənə çətindir, mənə çox çətindir. Bir daha təkrar edirəm, mən bunu edə bilmərəm. Qoy kim hara istəyir getsin, mən burada qalacağam və silahla Azərbaycanın taleyini, mənafeyini müdafiə edəcəyəm və döyüş meydanında öləcəyəm". Danışıqların gedişində Azərbaycan SSR təhlükəsizlik nazirinin müavini general A.Atakişiyev soruşdu: "Mən dəqiq bilmək istəyirəm, əgər danışıqlar işi dinc yolla həll etmək məcrasına yönəlsə, hansı güzəştlərə gedə bilərsiniz, sizin güzəştlərin hüdudları haracandır?" Bu suala cavab olaraq S.C.Pişəvəri şifahi olaraq bənd-bəbənd bildirdi:

a)-Azərbaycanın muxtariyyəti əncümənlər formasında tanınsın; Azərbaycanın öz ordusu, öz komandan heyəti olsun, lakin bütün İran ordusu kimi Baş Qərarkaha tabe edilsin;

b)-Zərurət olduqda Azərbaycan ordusu İranı xarici düşmənlərdən müdafiə etsin, lakin yerli tayfalara qarşı istifadə edilməsin;

v)-Daxili qaydaları Tehrandan jandarm və digər silahlı qüvvələr göndərmədən təmin etmək hüququ Azərbaycanda qalsın;

q)-Azərbaycanda kargüzarlıq işləri Azərbaycan, Tehranla yazışmalar isə fars dilində olmalıdır;

ğ) Məktəbdə tədris 3-cü sinfə qədər ancaq Azərbaycan dilində keçirilməlidir. 3-cü sinifdən sonra əlavə olaraq fars dili də tədris edilə bilər;

d)-Dövlət torpaqları kəndlilərdə qalmalıdır, Kəndlilər arasında paylanmış mülkədar torpaqlarının haqqı

dövlət hesabına ödənilməlidir və tədricən kəndlilər bu pulu dövlətə qaytarmalıdır;

e)-Milli hökumətin indiyə qədər həyata keçirdiyi tədbirlərin qanuniliyi Tehran tərəfindən tanınmalı, İran qanunlarına görə demokratlara münasibətdə, məsələn, dövlət vəsaitinin xərclənməsi, əmlakın müsadirə edilməsi, ayrı-ayrı şəxslərin mühakiməsinə, Azərbaycandan çıxarılma, edam və digərlərinə görə cinayət təhqiqatı qaldırılmamalıdır;

ə) Azərbaycan əhalisinin sayına uyğun olaraq İran Məclisinə Azərbaycandan seçilən deputatların sayı artırılmalıdır;

j)-Azərbaycandan demokratik hərəkatın düşməni kimi çıxarılmış şəxslərin geri qayıtmasına imcazə verilməlidir .

Sovet Azərbaycanının nümayəndələri Pişəvəridən xahiş etdilər ki, bütün dediklərini kağıza köçürüb onlara versin. Lakin o, qəti şəkildə bundan imtina edib bildirdi ki, indi o, elə vəziyyətdədir, bütün bunları yazmaq üçün əli qələm tutmur və xahiş etdi ki, onlar özləri bunu tərtib edib Bakıya Göndərsinlər. Pişəvəri xahiş etdi ki, söhbət zamanı onun əsəbilik hallarını M.C.Bağırova xəbər verməsinlər. Söhbətin sonunda o, Mirzə İbrahimova üzünü tutub zarafatyana dedi: "Sizin getməyiniz ərəfəsində mən sənə bir-iki söz deyəcəyəm, sizinlə dalaşacağam". M.İbrahimov cavab verdi:

"Biz pis heç nə etməmişik ki, dalaşaq da". Qərara alındı ki, aprelin 5-də Şəbüstəri və Padeqanın iştirakı ilə yenidən görüşsünlər. A.Atakişiyev elə həmin gün söhbətin tam mətnini və orada baş vermiş hadisələr barədə Təbrizdən teleqraf vasitəsi ilə M.C.Bağırova təcili məlumat göndərdi. Məlumatda göstərilirdi: "Söhbətin gedişində Pişəvəri əsəbiləşir, demokratların müstəqilliyi, Qəvamın satqın rolu haqqında tez-tez danışır, Milli hökumətin fəallarının və digərlərinin Sovet İttifaqına aparılması barədə məsələ qaldırırdı". Aprelin 5-də M.C.Bağırov Təbrizdə keçirilmiş görüş və Pişəvərinin təkliflərini İ.Stalin və V.Molotova çatdırdı. O yazırdı: "Pişəvəri bir daha bildirib ki, Qəvamın bütün niyyətləri demokratik hərəkatın, Azərbaycan xalqının indiyə qədər əldə etdiyi bütün nailiyyətlərin ləğv edilməsinə yönəlib. Son olaraq o deyib ki, bizim bütün göstərişlərimizi yerinə yetirəcək, sabotaj yolu ilə işi pozmayacaq, lakin o gizlətmir ki, indiki anda yalnız göstərişlərin icraçısı olacaq, daxilən isə o, bütün bunlarla razılaşmadığını bildirib".

**Aprelin 4-də** axşam məlum oldu ki, S.C.Pişəvəri Bakı üçlüyündən heç kəslə razılaşmadan İran Məclisinin Tudə fraksiyasının üzvü və Tudə Partiyasının rəhbərlərindən olan Əbdülsəməd Kambəxşi Təbrizə çağırıb. Bu faktla bağlı M.C.Bağırov Moskvaya göndərdiyi məktubda məlumat verirdi. Hətta xatırladırdı ki, vaxtilə ADP yaradılanda Kambəxş Bakıya dəvət edilən adamlardan idi. Lakin o, Demokrat Partiyasının

yaranmasına və Azərbaycan milli hərəkatına mənfi münasibət bəslədiyindən Güneydəki proseslərə yaxın buraxılmamışdı. Kambəxşin anası Qacar nəslindən, atası isə fars idi. Moskvada hərbi və ümumi siyasi təhsil almışdı. Bağırov Stalinə yazırdı: "Bizim xəbərimiz olmadan Pişəvəri tərəfindən onun çağırılması qətiyyən aydın deyil". Yaranmış vəziyyətdə Təbrizdəki Bakı üçlüyünə göstəriş verildi ki, Pişəvərinin pis əhval-ruhiyyəsi, əsəbiliyi ilə bağlı öz təkliflərini yazmaq haqqında ona təzyiq göstərilməsin. Tövsiyə edilirdi ki, Tehran hökuməti ilə qarşıdakı görüşdə maksimum güzəştə getməyin zəruriliyi Pişəvəri və digər rəhbərlərə izah edilməli və onlar tədricən buna hazırlanmalıdır. Pişəvərinin həmişə pis münasibət bəslədiyi Kambəxşi qəflətən Təbrizə dəvət etməsinin ətraflı araşdırılması üçün tapşırıq verilmişdi ki, bu məsələ həm ayrılıqda Pişəvəri, həm də Kambəxş ilə aydınlaşdırılsın. Kambəxşin Təbrizə gəlişi və Milli hökumətin liderləri ilə danışıqları Sovet xüsusi xidmət orqanlarının nəzarətinə götürüldü. M.C.Bağırov Təbrizdəki adamlarına yazırdı: "Çox mehribancasına, dostcasına, sakit formada Pişəvərini və onun yoldaşlarını, ayrılıqda isə Kambəxşi inandırın ki, onların tərəfindən bizimlə razılaşdırılmadan atılan hər hansı addım çox mənfi və arzuolunmaz nəticələr verə bilər. Yaranmış beynəlxalq vəziyyət nəzərə alınmadan onların hər hansı formada çıxışı avantüraya bərabərdir və qabaqcadan iflasa məhkumdur". Eyni zamanda, M.C.Bağırov M.İbrahimova təcili məlumat göndərdi ki, o, aprelin 6-da, ən geçi isə 7-də Sovet Culfasında S.C.Pişəvəri ilə görüşmək istəyir.

**Aprelin 4-də** S.C.Pişəvəri tanınmış tudəçi Ə.Kambəxşlə görüşdü. Kambəxş ona Tehrandakı vəziyyət, Tudə Partiyası Mərkəzi Komitəsinin Qəvam hökumətinə münasibəti, Sovet qoşunları çıxdıqdan sonra irticanın güclənəcəyi şəraitdə Tudə Partiyasının vəzifələri haqda geniş məlumat verdi. Kambəxş bildirdi ki, Tudə Partiyası MK-nın bütün tərkibi Qəvama qarşı müxalifdir, onu demokratiyanın qəddar və hiyləgər düşməni hesab edir. Lakin Tudə rəhbərliyi Sovet İttifaqının beynəlxalq siyasətində yaranmış çətinliklə bağlı Qəvam hökumətinə zahirən hörmətlə yanaşdığını nümayiş etdirir. Buna baxmayaraq MK belə hesab edir ki, Sovet qoşunları çıxdıqdan sonra Qəvam tədricən bütün İranda, ilk növbədə isə şimalda demokratik hərəkatın boğulması siyasətini yeridəcək. Tudə Partiyası MK-sı belə hesab edirdi ki, Qəvam ilk növbədə öz arxasını - Tehranı tudəçilərdən təmizləyəcək, sonra isə Azərbaycana hücum edəcəkdir. Tudə Partiyası MK-sının fikrincə, Azərbaycanda və İranın digər yerlərində demokratik hərəkatın darmadağın olunmasının qarşısını almaq üçün birgə çıxışlar planı hazırlanmalıdır. Bu plana görə, Sovet ordusu çıxdıqdan sonra Azərbaycan zərbəni gözləmədən, özü fəal hərəkətə keçməli, Azərbaycanla eyni vaxtda Tudə Partiyası MK-sı Tehranda, Qəzvində və digər şimal vilayətlərdə üsyanlar təşkil etməlidir. Ə.Kambəxş belə hesab edirdi ki, bunun üçün imkanlar vardır və Tudə Partiyası MK-sı başda olmaqla Tehranın mütərəqqi qüvvələri Azərbaycanın milli mənafeyinə hörmətlə yanaşmağa həmişə hazırdır. Eyni zamanda, o qeyd edirdi ki, Tehran hökuməti Azərbaycan demokratları ilə İran tudıçilərinin birləşmiş qüvvələrinin qarşısında durmaq gücündə deyildir.

Əgər demokratlar və tudəçilər fəal hərəkətdən imtina etsəydilər, bu, Qəvam hökumətinin möhkəmlənməsinə, təşəbbüsü ələ almasına gətirib çıxara bilərdi. Pişəvəri Kambəxşin bir çox fikirləri ilə razılaşdı və qeyd etdi ki, Tehran Azərbaycanın milli mənafeyinə qəsd etsə, Azərbaycan özünü müdafiə etmək məcburiyyətində qalacaqdır.

**Aprel ayının 5-də** gündüz saat 4-də Təbrizdə bir tərəfdən Milli hökumətin liderləri S.C.Pişəvəri, M.Ə.Şəbüstəri, S.Padeqan, S.Cavid, digər tərəfdən Sovet Azərbaycanı nümayəndələri, M.İbrahimov, H.Həsənov, A.Atakişiyev və Ə.Kərimov olmaqla geniş iclas keçirildi. Hələ müzakirələrə keçməzdən əvvəl doktor Cavid dedi ki, o, axşam radiodan SSRİ səfiri ilə Qəvam əs-Səltənənin danışıqları haqqında məlumat eşidib. Guya, bu danışıqlarda Azərbaycan məsələsinin İran Konstitusiyası çərçivəsində həll olunacağı barədə söhbət gedib. Bütün oturanlar bu məlumatı diqqətlə dinlədilər və verilən məlumata münasibətdə hərə öz fikrini söylədi. M.İbrahimov müzakirə iştirakçılarına müraciətlə dedi: "İndi dünyada yaranmış siyasi şərait, xüsusilə İrandakı vəziyyət çox mürəkkəbdir. Ona görə sizin hökumətinizi möhkəmləndirməklə yanaşı, gələcək barədə də düşünməliyik. Siz qarşıdakı hadisələri qabaqcadan görməlisiniz və buna hazırlaşmalısınız, müəyyən məqamlarda hətta siyasətinizi dəyişməlisiniz. Məsələ bundadır ki, Qəvam əs-Səltənə, ola bilsin ki, Qızıl Ordu çıxdıqdan sonra Azərbaycan problemi ilə bağlı danışıqlara başlamağı sizə təklif etsin. Qırğının qarşısını almaq və bizim ümumi işimiz naminə siz gərək lazımi məqamda Qəvama bir sıra güzəştlərə gedəsiniz. Bu məsələ bilavasitə Sovet hökumətinin siyasətindən, Tehran hökuməti ilə SSRİ arasında hazırda aparılan danışıqlardan irəli gəlir. Bizim rəhbərlərimiz tapşırıq veriblər ki, bu məsələ ilə bağlı sizin fikirlərinizi öyrənək və tədricən bu işə hazırlaşaq". Hələ M.İbrahimov fikrini tamamlamamış Məclisin sədri Şəbüstəri onun sözünü kəsərək dedi: "Cənablar, İranda cərəyan edən hadisələr bizə də məlumdur, Tehrandakı mövcud hökuməti və onun rəhbərlərini də yaxşı tanıyırıq. Bizim qan qardaşlarımız kimi sizi xəbərdar edirik ki, Qəvam əs-Səltənənin Sovet İttifaqına neft konsessiyası vermək vədləri yalandır, dəlil olaraq deyə bilərəm ki, bu məsələnin Məclisdə təsdiqini yeddi ay sonraya saxlayır. Məlum olduğu kimi, bu yeddi ayda yeni hadisələr baş verə bilər və yeni hökumət qurula bilər ki, Sovetlərə neft verməkdən imtina etsin. Ona görə Qəvamın vədlərinə inanmayın və biz də ona güzəştə getməyəcəyik, xahiş edirik, Azərbaycan xalqının mənafeyinin müdafiəsi işində bizi axıra qədər müdafiə edin. Biz yalnız sizə arxalanırıq. Əlimizdə olan silahı hsç vaxt və heç bir halda yerə qoymayacağıq. Eyni zamanda, axıra qədər çalışacağıq ki, Azərbaycan xalqının qanı axmasın, lakin bizim üstümüzə yerisələr, son damla qanımıza qədər vuruşacağıq". Şəbüstəridən sonra çıxış edən S.Padeqan onu müdafiə etdi. Sonra daxili işlər naziri doktor Cavid söz aldı. O qeyd etdi ki, əgər söhbət qan tökmədən dinc danışıqlar yolu ilə məsələni həll etməkdən gedirsə, sizi inandırıram ki, son nəticədə bizim fikirləşdiyimizdən on dəfə artıq qan töküləcək. Bu gün Qəvam bütün məsələləri bizimlə dinc yolla həll etməyə hazırdır, sabah Qızıl Ordu çıxdıqdan sonra o bütün vasitələrlə çalışacaq ki, bizim milli hərəkatımızı məhv etsin. Mən ən böhranlı vaxtda qəhrəman fədailərə qoşulub partizanlıq etməyə hazıram, lakin heç vaxt mürtəce hökumətə tabe olmayacağam. Siz yaxşı bilirsiniz ki,

İnkiltərə Qəvam hökumətinə kömək etməsə, biz yetərincə gücə malikik ki, Tehrana hücum edib onu devirək və demokratik rejim quraq. Beləliklə, Azərbaycan xalqı bütün təhlükələrdən birdəfəlik xilas olsun. Biz bunu başa çatdıra bilərik.

S.C.Pişəvəri artıq bütün çıxışları, xüsusilə Azərbaycan SSR təhlükəsizlik nazirinin müavini, general A.Atakişiyevin məsləhətlərini sakit və soyuqqanlıqla dinləyirdi. O, baş naziri və digər hökumət başçılarını inandırmağa çalışırdı ki, indiki vəziyyət Milli hökumətdən İran hökumətinə münasibətdə öz siyasətində bəzi dəyişikliklər etməyi tələb edir. Buna tədricən hazır olmaq lazımdır, qalan rəhbərləri də buna hazırlamaq lazımdır ki, qəflətən gözlənilməz hadisələrlə üzləşməsinlər. Bu yerdə Pişəvəri onun sözünü kəsərək dedi: "Mən şəxsən Qəvam əs-Səltənə hökuməti ilə danışıqlardan imtina etmirəm, lakin sizə bildirməliyəm ki, indi Tehran hökuməti, ayrı-ayrı mülkədarlar və xanlar Azərbaycan Milli hökumətinə hücum etmək üçün ciddi hazırlaşırlar. Ona görə də biz heç vaxt öz silahlı qüvvələrimizi buraxmamalıyıq, yaxud onu İran hökumətinin əlinə verməməliyik ki, sonra onların başına oyun açsınlar. Bizə hökmən öz silahlı qüvvələrimizi saxlamaq və onu qorumaq lazımdır. Mürtəce dairələrlə mübarizəyə onu daha yaxşı hazırlamaq lazımdır. Əgər biz Qəvamla danışıqlara indi başlasaq və ona tez güzəştə getsək, böyük səhvə yol vermiş olacağıq, xalqın nəzərində nüfuzdan düşəcəyik". S.C.Pişəvəri Bakının nümayəndələrindən soruşdu ki, siz konkret olaraq bizim tərəfimizdən Qəvam əs-Səltənəyə ediləcək hansı güzəştləri təklif edirsiniz? A.Atakişiyev və M.İbrahimov indi konkret hansı güzəştlərin edilə biləcəyini demədilər, lakin tövsiyə etdilər ki, əgər zərurət olarsa, gərək Milli hökumət Tehran hökumətinə maksimum güzəştə getməyə hazır olsun. S.C.Pişəvəri əlavə etdi ki, bizim Qəvama güzəştlərdən sonra o, iri məbləğdə rüşvət və müxtəlif kombinasiyalar ilə Məhabadın bütün silahlı kürdlərini bizə qarşı qoyacaq. Onda bu vəziyyətdən çıxmaq bizim üçün çətin olacaq. Sizin və Tehran hökumətinin konkret təkliflərindən asılı olmayaraq Azərbaycanın ərazisində öz silahlı qüvvələri, fədailəri, nəzmiyyəsi, öz sərhədləri, öz silahlı qüvvələri ilə qorunan, bərqərar edilən daxili qaydaları olmasını mən indi təkid edirəm və danışıqlar vaxtı da təkid edəcəyəm, mənim həmkarlarım da mənimlə razılaşırlar.

**Aprel ayının 7-də** M.C.Bağırov Culfada S.C.Pişəvəri ilə görüşdü. Eyni zamanda, İran Tudə Partiyasının təşkilat şöbəsinin müdiri, keçmiş İran Məclisinin üzvü Ə.Kambəxş də Culfaya çağırılmışdı. Lakin o, ilk danışıqlarda iştirak etmirdi. Culfa görüşündə Pişəvəri bildirdi ki, o, yaranmış vəziyyəti başa düşür və Demokrat Partiyası, Milli hökumət cəhd edəcək ki, Sovetlərə qarşı yeni təxribat yaranmasına bəhanə verməsinlər. Belə olduqda Bağırov soruşdu ki, onda bəs nə üçün Tudə Partiyası MK-nın üzvü Kambəxşi Tehrandan dəvət etmisən? Pişəvəri cavab verdi ki, o və onun silahdaşları əmindirlər ki, Qəvam və onun kompaniyası Sovet qoşunları Şimali İrandan çıxan kimi nəinki Azərbaycanda, eləcə də İranın digər əyalətlərində böyük təxribat və kütləvi qırğın hazırlayır. Bizim bu fikrimizi Tudə Partiyasının rəhbərləri və partiyanın əyalət təşkilatı da bölüşür. Ona görə də, nə qədər ki imkan var, fikir mübadiləsi məqsədilə İranın

mütərəqqi qüvvələri ilə əlaqəyə girmək lazımdır. Azərbaycan məsələsi müzakirə ediləndən sonra Ə.Kambəxş danışıqlara dəvət edildi. O təsdiq etdi ki, Sovet qoşunları çıxandan sonra Tehran irticası bilavasitə ingilislərin və amerikalıların rəhbərliyi ilə böyük təxribat və qırğına hazırlaşır. Kambəxş qeyd etdi ki, Seyid Ziyanın həbsi, ola bilsin ki, tanınmış irticaçılardan daha kimlərinsə həbsi demokratik qüvvələrə qurulmuş tələdir. M.C.Bağırov Pişəvəri və Kambəxşi xəbərdar etdi ki, onlar özləri təxribat üçün heç bir bəhanə verməsinlər, heç bir üsyana və Milli hökumətin qüvvələrinin hərəkətinə yol verməsinlər .

* Baxin: C.Həsənli: GüneyAzərbaycanda Sovet, amerika, İngiltərə qarşıdurması 1941. 1946

## AMH Rəhbərlərinin Sovetlərə Son Müraciəti

### Müraciətin Mətni

Siz özünüz çox gözəl bilirsiz ki, bizim nümayəndələrimiz Tehranda müraciət etdikdən sonra, Tehranın sağ və irticai mətbuatı çox ciddi və hərarətli ləhn ilə bizim azadlığımızı pozmaq və demokratik nehzətimizin asarını tamamilə ortadan aparmaq üçün Azərbaycana qoşun yeritməyi təbliğ edirdilər. Qəvamüs-Səltənə isə əvvəl intixabat üçün qüvayi-təminə (asayişi qorumaq) göndərmək bəhanəsi ilə, nəhayət, açıqdan-açığa Azərbaycan nehzətini ləğv edib, onun başçılarını məhv etmək şüarilə üzərimizə həmlə edəcəyini rəsmi sürətdə özünün teleqraflarında və bəyaniyyətlərində dünyaya bildirmişdi. Nəhayət, iş söz və yazı ilə qurtarmayıb həmin ayın on üçündə günortadan qabaq saat yeddidə onun göndərdiyi müsəlləh qüvvələr Rəcəin məntəqəsinə bizim fədai postlarımızı 12 saat tamam tüfəng, müsəlsəl, top və tank vasitəsi ilə (atəşə tutaraq) yol açıb torpağımıza soxulmağa çalışmışdır. Bundan əlavə müvafiqətnaməmizin xilafına olaraq, Zəncana müsəlləh qüvvə göndərilmiş və rəsmi surətdə onun müavini Müzəffər Firuzun bizə yazdığı naməyə baxmayaraq məşhur feodal Zülfüqarini[2] və sairlərini Zəncandan uzaqlaşdırmamış, hətta onu sərhəng dərəcəsi (Polkovnik rütbəsi) verdikdən sonra müsəlləh edib üzərimizə göndərmişdir. Bunlar isbat edir ki, Qəvam bizim ilə bağladığı sazişini, özünün Azərbaycan valisi doktor Cavidə yazdığı namələrinin mürəkkəbi qurumadığı bir halda həyasızca(sına) onu pozmağa başlamaqla özünün sui-qəsdini aşkara çıxarmışdır. Görünür, o, özünü bizim saziş üçün vasitə qərar verdiyi sovet nümayəndələrinə etdiyi rəsmi vədəyə, yəni Azərbaycan məsələsinin sülh yolu ilə həll edilməsinə əməl etmək fikrində deyil. Belə olduğu halda Azərbaycan xalqı üçün vahid bir yol qalır: o da öz silahının gücü, öz cavanlarının qəhrəmanlığı ilə azadlığını müdafiə etməkdən ibarətdir. Xalqımız çox (gözəl) bir surətdə anlamışdır ki, onun azadlığının zamini sazişlər, kağızlar, müvafiqətnamələr və teleqraflar deyil, bəlkə onun qolunun gücü və süngüsünün qüdrəti ola bilər. Bizim xalqımız Qəvamın doktora (doktor Cavidə) yazdığı saziş məktubunun ardınca göndərilən

qoşun və silahlı qüvvələri eləyə bilməz görməsin. Qəvam bu işi hər dəqiqə görə bilər və heç bir kağız, müvafiqətnamə onun xainanə hərəkatının qabağını ala bilməz. Biz səkkiz ay tamamdır ki, xalqımızın ehsasatı və firqə üzvlərimizin arzuları, firqə aktivinin meylinin xilafına olaraq, iş xatirəsi və ixtilafın sülh və saziş yolu ilə həll edilməsi və böyük dostumuz Şuralar Ittifaqına dünya siyasətini gözləmək, həmçinin Şura dövlətinin ortamızda vasitə olmasını nəzərə alıb Qəvamın irticai simasını demokratik və mütərəqqi göstərməyə çalışmışıq, hətta bəzən öz fikir və əqidəmizin xilafına olaraq, onu tərif və təmcid (yüksək) dəxi etmişik ki, iş bizim tərəfimizdən pozulmasın. **Hətta fədailərimizin Qəzvin, Rəşt və Tehranı götürmək imkanı olduğu halda öz nüfuz və hörmətimizi sərf edib onların qabaqlarını saxlamışıq ki, onun əlinə bəhanə düşməsin**.

Bizim böyük güzəştlərimizi bütün dünya bildiyi kimi siz daha gözəl bilirsiz: biz bu saziş yolunda Milli Hökumətimizi ləğv etdik, Milli Məclisimizi Əyalət Əncüməninə döndərdik, fədai dəstələrini nigəhban təşkilatına təbdil etdik (çevirdik), milli qoşunumuzun ixtiyarını və fərmandehliyini (əmr verməyi) onların əlinə tapşırmağa hazırlandıq, bütün aidatımızı onların xəzinəsinə, yəni Milli Banka verməyə başladıq.[3] Bunların hamısı ondan ötrü idi ki, onların əllərinə dəstaviz verməmiş olaq. Qəvam isə bizim güzəştlərimizi gördükdə hər gün tələbatını artırıb axırda iş o yerə gətirib çıxardıb ki, istəyir nağəhani (qəfləti) bir həmlədə azadlığımıza birdəfəlik xatimə versin. O, neft məsələsini qabağa çəkmişdi ki, Qızıl Ordunun Irandan çıxmasını təmin etsin və Azərbaycan Milli Nehzətini ortadan aparsın.

Bu aydın bir məsələdir ki, o, bu işləri Iranın sərvətinə göz tikən Ingilis və Amerika dövlətlərinin göstərişi ilə icra etməkdədir. O fikir edir ki, həmişə hoqqabazlıq və yalançılıq ilə etdiyini eləyə bilər. Azərbaycanlıları aldatdığı kimi Sovet dövlətini də iğfal edib (çaşdırıb) neft məsələsini də cürbəcür hoqqalar ilə başdan sala bilər. **Biz azərbaycanlılar çox yaxşı anlamışıq ki, ingilislər və amerikalılar hər qiymətə olur-olsun, neft məsələsini öz mənfəətlərinə həll etməyə çalışırlar. Qəvam isə onların nökəridir.** Əvvəla, necə ki, görürsüz, Məclisə bir nəfər də olsun azadixahlardan yol vermək istəmir, bu isə müstəqimən Şuralar əleyhinə olan bir tədbirdir. Mürtəcelərdən toplanan bir Məclis qətiyyən neftin Şuralara verilməsinə razı olmayacaqdır. Qəvam isə Məclisi bəhanə edib özünün verdiyi sözdən qaçacaq və yaxud istefa verməklə yaxasını qurtaracaqdır. Sovet hökuməti isə Qəvamın verdiyi vədədən qanuni bir sənəd və rəsmi bir mədrək kimi istifadə edə bilməyəcəkdir. Iran tarixində bu kimi hadisələr çox olmuşdur. Birinci dünya müharibəsindən sonra Qəvamüs-səltənənin qardaşı Vüsuddövlə ingilislər ilə bir müahidə bağlamışdı. Bu müahidəni şah və Məclis rədd etdi, ingilislər isə hətta dövlətin vəzirlərinə məsələn, Müzəffər Firuzun atası Nüsrətüddövləyə və qeyrilərinə rəsmi surətdə verdiyi pulu da geri ala bilmədi. Deməк, neft imtiyazı məsələsi olduqca nisyə bir məsələdir ki, Sovet dövlətinin Məclisdə və camiədə tərəfdarları olmasa, onu əldə edə bilməyəcəkdir. Qəvamüs-səltənənin [hüsni-niyyəti] isə möhkəm bir qaranti ola bilməz, çünki o, Azərbaycan məsələsində hüsni-niyyətin nə olduğunu açıq bir şəkildə göstərməkdədir.

Neft məsələsi o vaxt Sovetlər nəfinə həll ola bilər ki, onun arxasında ictimai qüvvələr olsun, Iranın ayrı yerlərində isə bu qüvvələr fövqəladə bir surətdə yığılıb, əzilib və ortadan getməkdədir, vəli tamamilə ortadan getməmişdir. Azərbaycanda isə bizim qüvvəmiz əhəmiyyətli bir qüvvə hesab oluna bilər. **Indi bizim Tehran hökumətinə böyük fişar gətirmək imkanımız vardır və bizim bu imkanımız Iranın ayrı yerlərində olan azadixah və demokratik qüvvələri də təqviyyət (möhkəmlədə) edə bilər. Mütəəssifanə, iş belə gedərsə, bizim gücümüz də çox tez bir zamanda əldən çıxa bilər.** O vaxt Qəvam və sair mürtəcelər hər nə istəsələr, maneəsiz edə bilərlər. Ümumiyyətlə, etiraf etmək gərək ki, siyasəti Qəvam və başqa bir dövlət adamının hüsni-niyyətinə bağlamaq quru bir işdir. Sovet siyasətinin ciddi tərəfdarı xalqın mütərəqqi və azadixah təbəqəsidir ki, onu gərək təqviyət edib əldə saxlamaq və ondan ötrü Azərbaycanın qüdrətini hifz etmək, onu qorumaq lazımdır. Bunu da nəzərdə tutmaq lazımdır ki, İranda siyasət ilə olan xarici ölkələr heç vaxt öz nüfuz və qüvvələrini əldən verməmişlər, xüsusən ingilislər ki, nüfuzlarını həmişə güclü saxlamaqla onların etimadını qazanıb istədikləri vaxt istifadə edə bilmişlər. Məsələn, qaşqay hadisəsini götürək. Siz gözəl bilirsiz ki, orada dövlət əleyhinə neçə dəfə böyük müsəlləh üsyan olmuşdur, bununla belə bu günədək ingilislər imkan verməyiblər dövlət onlardan bir qəbzə əsləhə (silah) ala bilsin; ora, ya bəxtiyari və ya cənubun başqa tayfalarının yeri ingilislərin möhkəm qalaları halında qalmaqdadır. Onlar isə bu qüvvələri gündən-günə artırırlar.

Sizə çox yaxşı məlumdur ki, xalqı hər vaxt ayağa qaldırmaq olmaz və [hərəkat] hər gün yaradılmaz, hər zaman böyük xalq hərəkəti üçün zəminə olmaz. Çox illətlər və böyük fədakarlıqlar nəticəsində Iranda nəzərimizi cəlb edən ictimai qüvvələr və Azərbaycanda böyük bir nehzət vücuda gəlmişdir. Bu nehzət müstəqimən sovet dövlətinin Iranda olan [köməkçisi] və Sovet siyasətinin poştibanıdır (arxa durmasıdır). Bu qüdrət sovet siyasəti üçün kəskin bir silahdır ki, onun vasitəsilə Iran xalqları kimi Şuralar Ittifaqı da böyük işlər görə bilər. Bu qüdrəti ümumi iş uğrunda hər bir fədakarlığa hazır olan bir qüdrətdir; onu əldən versək, bu tezlik ilə yeni bir qüdrət vücuda gələ bilməz.

**Biz bilmirik, necə olur ki, Yunanıstanda, Indoneziyada və qeyri yerlərdə məzlum xalqlar öz azadlığı uğrunda müsəlləh bir surətdə mübarizə edə bilərlər, amma biz gərək öz əlimiz ilə cəlladlara təslim olaq. Bu, tək bizim sözümüz deyildir, bunu xalqımız və firqənin görkəmli üzvləri açıq bir surətdə söyləməkdən [çəkinmirləri]. Bizim firqəmiz və xalqımız bizə deyir ki, bu günkü əlimizdə olan dəlillər və mədrəklərdən (sənədlərdən) sonra artıq sözə və ya kağıza etimad edib Qəvamüs-səltənə və başqalarına inana bilmərik. Qəvam gedər, yerinə başqası gələr. Hərgah müsəlləh qüvvəmiz vasitəsilə irticanı əzməsək, heç vaxt siyasət bizim nəfimizə dönə biməz. Və bizim üçün əldə heç bir qarantı yoxdur, özümüzü də nahaq yerə aldada bilmərik. Bu günkü imkanı əldən buraxmaq olmaz. Belə bir iş görsək, tarix bizi həmişə məzəmmət edəcəkdir. Dünyada heç bir millət özü öz əlilə öz qüdrətini məhv etməmişdir, biz də bunu etməməliyik.**

Qəvamın üzərimizə göndərdiyi qüvvənin xaincəsinə həmləsi xalqımız içərisində şədid (kəsgin) bir həyəcan tövlid etmişdir (əmələ gətirmişdi). Xalq dəstə-dəstə firqəyə müraciət edib azadlığı müdafiə etmək üçün icazə və silah tələb edirlər. Bu isə xalqımızın ruhiyyəsini ciddi surətdə aşkara çıxarır. Beş-üç nəfər malik və ya irticai ünsürlərin, məsələn, Əmir Nüsrət Isgəndəri, Camal Imami, sərləşkər Müqəddəm və Zülfüqarilərin ruhiyyəsi xalq ruhiyyəsinə nümunə ola bilməz. Bunların ağalıqları, torpaqları əllərindən getdiyi üçün ruhiyyələri də məlumdur ki, nə cür ola bilər. Amma azadlıq, torpaq alan kənd və şəhər camaatı aldığını saxlamaq yolunda hər bir şeyini fəda etməyə hazırdır. Hərgah biz bu gün onların azadlığının ortadan getməsinə imkan versək, onları bir də ayağa qaldırmaq mümkün ola bilməz, artıq onlar kimsəyə etimad etməzlər. Xalq nə tək bizdən, bəlkə ümumi azadlıq şüarı ilə meydana çıxan ümumi-qüvvələrdən naümid və məyus ola bilər. Bizim qüvvə və qüdrətimiz isə xalqın bizə olan etimad və inamına bağlıdır.

Azərbaycan xalqı və ona rəhbərlik edən Demokrat Firqəsi və onun başçılarının Sovet dövlətindən iki intizarı vardır:

Əvvəla, sərhədlərimiz açıq ikən, milli qüdrətimiz mövcud ikən bizə **CÜZI MIQDAR ƏSLƏHƏ (SILAH) VERILSIN**, çün iş belə gedərsə, bu imkan olmayacaqdır. Biz çox asanlıq ilə məxfi surətdə eləyə bilərik verilən əsləhəni milli qüvvələrimizə yetirək, müxalif qüvvələr ondan müttəla olmasın. Dava başlanırsa, şiddətləndikdən sonra bu iş çox çətin ola bilər. **Biz elə çox silah istəmirik; müxtəsər bir miqdar olsun ki, fədailər silahsız düşmən qabağına getməyə məcbur olmasınlar.**

İkinci, indi ki, Qəvam müharibəni başlayıb və bizim qardaşlarımızın qanını tökməkdədir, icazə verilsin biz də hər tərəfdən onu məziqədə (ehtiyacda) saxlamaqla, Iranda olan azadixah qüvvələrin ayağa qalxmalarına imkan verək, bu vasitə ilə bütün Iranda böyük bir nehzət başlayıb irticai hökuməti sərnigun (yerlə-yeksan) edək, yerində demokratik bir hökumət vücuda gətirək. Əgər bu səlah[dırsa], icazə verilsin Tehran ilə tamamilə qətirabitə edib öz Milli Hökumətimizi vücuda gətirək ([xalq isə bu axırıncı tədbirə daha artıq rağibdir). Sovet siyasəti bu iki tədbirdən hər [hansı birini] intixab edərsə, biz şərafətlə onu əncam verib müvəffəq ola bilərik.

Demək lazımdır ki, çox yaxşı oldu ki, Qəvam bizim silahlı qüvvələrimizin fərmandehliyini alma[mış], əvvəl öz həqiqi simasını göstərdi. Əgər sonra bu işi etsə idi, bizi tamamilə məhv edə [bilərdi]. Onun bu gün bizə həmlə etməsini Azərbaycan xalqı özünə xoşbəxtlik hesab edir. Işi elə bir vaxt edə bilərdi ki, bizim müdafiəyə imkanımız olmasın, indi isə bizim müdafiəyə imkanımız vardır. Bu imkandan düzgün istifadə olunursa, biz istədiklərimizi [əldə] edə bilərik. Əgər bir qədər təxir olursa, ya işə tərdid ilə baxarsaq, bu imkan ortadan [gedər] necə ki, yuxarıda dedik, xalq qorxar, məyus olar, irtica azadlıq qüvvələrini əzib [yox] edər. Bu isə Sovet dövlətinin Iranda illər boyu fəaliyyət və zəhmət nəticəsində qazandığı böyük nüfuz və böyük qüdrətin ortadan getməsi deməkdir. Bunun nəticəsində Iran tamam ingilislər və amerikalıların

qucağına düşər və burada Rza xan dövrəsindən şədid bir despotizm meydana çıxar ki, Iran xalqı Sovet siyasəti [üzrə] heç bir növ ilə hərəkət etmək imkanına malik [olmaz]. **Belə bir dövrdə, belə şəraitdə Iranda neft məsələsindən danışmaq belə bir söz olub qalar. Və Sovet dövləti nefti tamamilə uduza bilər. Buna isə heç bir şübhə yoxdur.**

Sovet hökumətinin Iranda nefti uduzması isə Iranda mütərəqqi siyasətin uduzulması deməkdir. Bu isə Yaxın Şərqdə demokratik hərəkata böyük bir zərbədir. Çünki artıq **Azərbaycan nehzəti Yaxın və Uzaq Şərqdə böyük müsbət təsir bağışladığı kimi, onun məhvi də mənfi təsir bağışlaya bilər.**

Yenə də təkrar edirik: iş danışıqlar və sazişlər ilə həll olmaqdan keçmişdir.

Sovet dövləti nə qədər sülh və sazişə çalışırsa, yüz o qədər Amerika və Ingilis dövlətləri Iran dövlətlərini cəngə (müharibəyə) və daxili müharibəyə və qan tökməyə təhrik edirlər. Onun üçün bu davanı vücuda gətirməyə imkanlar yaradırlar. Bu gün Qəvam hökumətini[nin] Amerikadan külli miqdarda pul aldığı əfsanə deyildir.

Ingilistandan və sair irticai ölkələrdən Irana silah sel kimi axıb gəlməkdədir. [...]dan yüklənən əsləhə müstəqimən Zəncanda vaqonlardan alınıb bizim əleyhimizə göndərilir. Biz Sovet hökumətindən böyük kömək istəmirik. Biz deyirik, Şuralar əleyhinə aparılan xainanə siyasətə bəhanə verilməsin və Şura hökuməti özünü zahirdə bizə əlaqəmənd dəxi göstərməyə bilər, amma necə Iran dövləti istəmir Sovet dövləti vasitə olub işi sülh yolu ilə həll etsin, Sovet hökuməti bizə də imkan versin, biz də Tehranın əleyhinə onun öz götürdüyü yol ilə [rəftar] edək.

Zərər yoxdur, madam ki, Qəvama ingilis və amerikalılar deyirlər Azərbaycan məsələsi daxili bir məsələdir, biz də deyirik belə bir məsələdir.

Qoy onlar Azərbaycana hücum etdikləri zaman Azərbaycan fədailəri onların başını əzsin. Biz də deyirik Azərbaycan məsələsi daxili məsələdir, biz bu daxili məsələni özümüz həll edərik, kimsənin Əmniyyət Şurasında və ya ayrı bir xarici ölkədə Şuralar Ittifaqı əleyhinə çığır-bağır salmağa haqqı yoxdur.

Yuxarıda dediyimiz kimi, əgər Şuralar Ittifaqının köməyi gizli olarsa, ondan Iran dövlətinin Təhlükəsizlik Şurasına müraciət etməyə də əlində heç bir dəlil ola bilməz. Axırda yenə də təkrar edirik: artıq sazişlər, danışıqlar fayda verməz. Xalqımız, firqəmiz və onun rəhbərləri fəqət sizin [ölkənizə] ümid bağlayır və ondan nicat gözləyir, bu isə ancaq sizin edəcəyiz cüzi silah köməyinə bağlıdır.

Indi on minlərlə kəndli fəqət silah tələb edir və bu köməyi bir an verməklə Iran xalqının azadlığı və sovet siyasəti təhlükədən xilas ola bilər və illa xətər çox yaxın və çox böyükdür. Yenə qeyd edirik, mümkündür qəvam qısa bir müddət hücumu dayandırsın. Buna inanmaq olmaz, bu sadə bir manevr olub

qalar. Onun Azərbaycan nehzətini məhv etməyə ciddən hazırlandığına bizim zərrəcə şübhəmiz qalmamışdır. Bizim üçün başqa bir yol yoxdur. Qeyri-müəyyən vəziyyətin xətəri hücumdan daha artıqdır. Bu vəziyyət bizi tədric ilə yorub [zəif] salmaqla məhv edəcəkdir.

Sizin müxtəsər köməyinizin yetişməsini səbr[siz]lik ilə gözləyirik.

Səmimi ehtiram ilə:

**Pişəvəri, Şəbüstəri, Padeqan, Doktor Cavid, Qulam Daneşyan**

**17 Azər 1325.**

## Sovet Dövlətinin Başçısı İ.Stalinin Azörbaycan Demokrat Firqəsinin Lideri S C Piyşəvəriyə Şəxsi Məktubu

**Pişəvəri yoldaşa**

Mənə elə gəlir ki, Siz Iran daxilində, həm də beynəlxalq nöqteyi-nəzərdən yaranmış vəziyyəti düzgün qiymətləndirmirsiniz.

Birincisi, Siz hazırda Azərbaycanın bütün inqilabi tələblərinə nail olmaq istəyirsiniz. Lakin indiki şərait belə bir proqramın həyata keçirilməsi imkanını istisna edir. Lenin praktiki tələblər kimi, qeyd edirəm, praktiki tələblər kimi əsas inqilabi tələbləri yalnız xarici düşmənlə uğursuz müharibənin dərinləşdirildiyi ölkə daxilində güclü inqilabi böhranın olduğu bir şəraitdə irəli sürmüşdü. 1905-ci ildə Yaponiya ilə uğursuz müharibə zamanı belə olmuşdu. 1917-ci ildə Almaniya ilə uğursuz müharibə zamanı belə olmuşdu. Siz indiki halda Lenini təqlid etmək istəyirsiniz. Bu çox yaxşı və tərifə layiqdir. Ancaq Iranda vəziyyət hazırda tamamilə başqadır. Iranda hazırda dərin inqilabi böhran yoxdur. Iranda fəhlələr azsaylıdır, onlar pis təşkil olunmuşlar. Iran kəndliləri hələlik ciddi fəallıq göstərmirlər. Iran hazırda xarici düşmənlə müharibə aparmır. Belə bir müharibədə məğlubiyyət isə Iranın irticaçı dairələrini zəiflədə bilərdi. Deməli, Iranda belə bir şərait yoxdur ki, Leninin 1905-1917-ci illərdəki taktikasını yürütməyə imkan versin.

Ikincisi, əlbəttə, Siz Sovet qoşunlarının Iranda qalmaqda davam edəcəyi təqdirdə Azərbaycan xalqının inqilabi tələbləri uğrunda mübarizə işində uğur qazanmağa ümid ola bilərdiniz. Lakin biz onları daha Iranda

saxlaya bilmirik, başlıca olaraq ona görə ki, sovet qoşunlarının Iranda olması Avropa və Asiyada bizim xilaskarlıq siyasətimizin əsaslarını sarsıdır. Ingilislər və amerikalılar bizə deyirlər ki, əgər Sovet qoşunları Iranda qala bilirsə, onda nəyə görə ingilis qoşunları Misir, Suriya, Indoneziya və Yunanıstanda, həmçinin Amerika qoşunları Çin, Islandiya və Danimarkada qalmasın. Buna görə də biz Iran və Çindən qoşunları çıxarmaq qərarına gəlmişik ki, ingilislərin və amerikalıların əlindən bu silahı qoparıb alaq, müstəmləkələrdə azadlıq hərəkatını genişləndirmək və bununla da öz xilaskarlıq siyasətimizi daha əsaslı və faydalı edək. Siz bir inqilabçı kimi, əlbəttə, başa düşürsünüz ki, biz başqa cür hərəkət edə bilmərik.

Üçüncüsü, deyilənləri nəzərə alaraq, Irandakı vəziyyətlə bağlı aşağıdakı nəticələrə gəlmək olar: Iranda inqilabi böhran yoxdur, Iranda xarici düşmənlərlə müharibə vəziyyəti yoxdur, deməli, irticanı zəiflədə və böhranı kəskinləşdirə bilən müharibədə uğursuzluq da yoxdur. Nə qədər ki, sovet qoşunları Iranda yerləşib, Siz Azərbaycanda mübarizəni genişləndirmək və daha irəli gedən tələblərlə geniş demokratik hərəkatı təşkil etmək imkanına maliksiniz. Ancaq bizim qoşunlar getməlidirlər və Irandan çıxıb getdilər. Biz artıq Iranda nəyə malikik? Biz Iranda Qəvam hökumətinin Iranın daha irticaçı ünsürlərini təmsil edən anqlofil dairələrlə münaqişəsinə malikik. Keçmişdə Qəvamın necə bir irticaçı olmasına baxmayaraq, o indi özünümüdafiə mənafeyinə və öz hökumətinin müdafiəsi naminə bəzi demokratik islahatlara getməyə və Iranın demokratik elementləri arasında dayaq axtarmağa məcburdur. Belə bir şəraitdə bizim taktikamız necə olmalıdır? Mən fikirləşirəm ki, Qəvamdan güzəştlər qoparmaq üçün bu münaqişədən istifadə etməliyik, anqlofilləri təcrid etmək və bununla da Iranın daha da demokratikləşməsi üçün müəyyən bazis yaratmalıyıq. Bizim sizə bütün məsləhətlərimiz məhz belə bir vəziyyətdən irəli gəlir. Əlbəttə, başqa taktika da qəbul etmək olar: hər şeyə tüpürmək, Qəvamla əlaqələri kəsmək və bununla da anqlofil irticaçıların qələbəsini təmin etmək olar. Amma bu, taktika deyil, axmaqlıq olardı. Bu mahiyyətcə Azərbaycan xalqının işinə və Iran demokratiyasına xəyanət olardı.

Dördüncüsü, bizə məlum olduğuna görə, Siz demişsiniz ki, biz əvvəlcə Sizi göylərə qaldırmış, sonra isə uçuruma yuvarlamışıq və Sizi rüsvay etmişik. Əgər bu doğrudursa, onda bu bizdə təəccüb doğurur. Əslində isə nə baş vermişdir? Biz burada hər bir inqilabçıya məlum olan adi inqilabi fənd tətbiq etmişik. Irandakı şərait kimi belə bir vəziyyətdə özümüz üçün hərəkatın məlum minimum tələbini əldə etməyi təmin etməkdən ötrü hərəkatı irəli qaçırmaq, minimum tələblərdən irəli getmək və hökumət üçün təhlükə yaratmaq, hökumət tərəfindən ediləcək güzəştlər üçün imkan yaratmaq lazımdır. Daha irəli qaçmadan, Siz Iranın indiki vəziyyətində hazırda Qəvam hökumətinin getməyə vadar olduğu tələblərə nail olmaq imkanına malik ola bilməzdiniz. Inqilabi hərəkatların qanunu belədir. Sizin üçün hər hansı bir rüsvayçılıqdan söz ola bilməz. Çox qəribədir ki, əgər Siz fikirləşirsiniz ki, biz Sizin rüsvayçılığınıza yol verə bildik. Əksinə, əgər Siz özünüzü ağıllı aparsanız və bizim mənəvi köməyimiz sayəsində əsasən Azərbaycanın indiki faktiki

vəziyyətinin leqallaşdırdığı tələblərə nail olsanız, o vaxt Sizə Orta Şərqdə mütərəqqi demokratik hərəkatın pioneri kimi azərbaycanlılar da, Iran da xeyir-dua verər.

**İ.Stalin**

**8 may 1946-cı il.**